**AFAQ ƏSGƏRQIZI**

# *BİR AYRILIQ...*

**2015**



# BİR AYRILIQ...

AFAQ ƏSGƏRQIZI

**Bir ayrılıq...**

**(Şəhid olmuş bütün eloğullarıma həsr edirəm)**

1967-ci ilin qışın oğlan çağı idi. Hər yanı ağappaq qar bürümüşdü. Qış öz sərt üzünü göstərirdi. Şaxta qılınc kimi kəsirdi. Yanvar ayının 21-də Laçında Əsgərovlar ailəsində bir oğlan uşağı göz açdı dünyaya. Nədən idisə bu oğlanın dünyaya gəlişi tək Əsgərovlar ailəsinin yox, bütün qohumlar və tanışların sevincinə səbəb oldu. Bu uşaq Evin üçüncü oğlu idi. Vaxt keçirdi. Uşağa çox adlar təklif olundu. Amma, anam Raisə xanım bu adların heç birinə əhəmiyyət vemrədi. Uşağın adını Rəmzi qoydu. Anam Raisə xanım ziyalı olmaqla yanaşı, həm də çox qeyrətli vətənpərvər bir qadın olduğu üçün övladlarına ad seçməkdə xüsusilə fərqlənirdi.

Evin böyük oğlu Rövşən, deyirdi ki, Koroğlunun adı Rövşən olub. Zalımlara qan udduran Rövşən –Koroğlu. İkinci oğul Elxan. Bu adı isə C.Cabbarlının «Od gəlini» pyesindəki Elxan surətindən götürmüşdür. Deyirdi ki, mən oğlanlarıma qəhrəmanlıq timsalında olan adlar qoyuram ki, onlar da vətənini, elini, xalqını hər şeydən uca tutan oğullar olsunlar.

Anamdan soruşdular ki, nə üçün oğluna Rəmzi adını qoyursan? Anam belə cavab verdi ki, bu oğlumun ona görə adını Rəmzi qoyuüram ki, qəhrəmanlıq, xeyirxahlıq, yaxşılıq Rəmzi olsun bu Rəmzi. Həm də indidən mən bu uşaqda cəsurluq, mərdlik, qorxmazlıq hiss etdiyim üçün Rəmzi adını onun özünə yaraşdırıram.

Atam Əsgərov Əsgər Eyvaz oğlu Laçının Qarıqışlaq kəndindəndir. Onlara «Gəloxçu» tayfası deyirlər. «Gəloxçu» tayfası haqqında əfsanə və rəvayətlər çoxdur. Bunlardan birini söyləmək yerinə düşərdi. Keçmiş zamanlarda hansısa bir qüdrətli ölkənin xeyirxah padşahının ayağı bu tayfalar yaşayan yerə düşür. Onda şaha xəbər verirlər ki, bəs bu yerin camaatı çox qoçaqdırlar. İstər kişiləri olsun, istərsə də qadınları. Həm də cəsur və mərddirlər. Bir də bu camaat ox atmaqda, xüsusilə fərqlənirlər. Şah əmr edir ki, şahın öz cəngavərləri ilə bu tayfanın cəngavərləri arasında yarışma təşkil edilsin. Elə də olur. Əvvəlcə güləşmədə gəloxçular qalib gəlirlər. Sonra isə nişan alıb ox atırlar. Ox atmaqda da «gəloxçu»lar daha yaxşı ox atırlar. Şah əmr edir ki, o cəngavərləri mənim yanıma gətirin.

Şahın hüzurunda baş əyən cəngavərləri bir-bir şah alınlarından öpərək deyir: «Gəl, oxçum, gəl». Şah həm də öz cəngavərlərinin, papaqlarını və oxlarını alaraq qalib olanlara hədiyyə edir. Bəli, gəloxçum sözündə m samitinin düşməsi nəticəsində elə söz, tayfanın adı gəloxçu qalır.

Atam həddən artıq sakit təbiətli, mehriban bir insan idi. Hündür boyu, yaraşıqlı, dolu bədənli idi. Xasiyyətinə görə ona heç kim çatmazdı. Uşaq vaxtdan yetim qalıb. Nənəm Nənəqız üç oğul və iki qızı çox çətinliklə böyüdüb. Əmilərimin böyüyü Əsgərov İbiş Qarıqışlaq kəndində çox böyük nüfuz sahibi olub. Kolxoz direktorundan tutmuş, məktəb direktoruna qədər vəzifələrdə işləmişdi. Vətənini sevən, həddən artıq qeyrətli bir şəxs idi. 70 yaşını haqlamasına baxmayaraq ölən gününə qədər əlində silah düşmənlərə qarşı vuruşdu. Onu da deyim ki, əmim ilk dəfə olaraq 1970-ci illərdə Azərbaycandan Moskvaya adam toplayıb Qara gölün söz savaşına çıxan ilk Azərbaycanlı olmuşdu. O, hətta Moskvada Azərbaycanın xəritəsini çıxartdırıb sübut etmişdi ki, Qara göl Azərbaycanındır. Ancaq gərək yerli hakimiyyət də belə deyəydi. Tək əldən səs çıxmaz deyirlər.

Əmim ermənilərlə vuruşda itgin düşdü. Vətənpərvər əmim elini-obasını hər şeydən uca tutan alicənab şəxs idi. Çox savadlı, ali təhsilli riyaziyyatm üəllimi idi. Ancaq elmin elə sahəsi olmazdı ki, onu bilməsin. Ömrü boyu öz halal zəhməti ilə yaşadı. Heç kəsə baş əymədi, yaltaqlıq nədi, bilmədi. Ötkəm sözü ilə hər yerdə qapılar onun üzünə açılardı. Haqq-ədalət uğrunda ömrü boyu mübarizə apardı. Mərd, vətənpərvər, qeyrətli olan əmim həm də gözəl, böyük bir ailə başçısı idi. 6 oğul, 3 qız böyüdüb, hamısına da ali təhsil vermişdi. Həyat yoldaşı, dil-ədəbiyyat müəlliməsi olan Suqra xanımla uzun illər ömür sürmüş, mənalı bir həyat keçirmişdi. Əmim həyat yoldaşını çox sevmiş, bir dəfə də olsun onun xətrinə dəyməmişdi. Bunu bütün el-oba, qohum-əqrəba yaxşı bilirdi. İndi əmimin övladları həkim, müəllim, mühəndis olaraq, müxtəlif elm sahələrində çalışırlar.

Ermənilərlə vuruşmada ailənin üçüncü oğlu Nadir də düşmənlər tərəfindən əsir götürülmüşdü. Çox çətinlik də olsa, əsirlikdən qaytarıldı. İndi Bərdədə məktəb direktoru işləyir.

Kiçik əmim Həsən də ali təhsilli iqtisadçı idi. Uzun illər Laçın rayon İstehlak Cəmiyyətində yoxlayıcı revizor işləmiş, hamının hörmətini qazanmışdı. O da təbiətcə atam kimi sakit təbiətli idi. 2009-cu ildə rəhmətə getdi.

Atam orta məktəbi çox çətinliklə bitirmişdi. Sonra Bakı Plan-Uçot texnikumuna daxil olmuş, oranı bitirdikdən sonra Laçına gəlmiş, ömrünün sonuna qədər Laçında müxtəlif idarə və təşkilatlarda müdir vəzifəsindən tutmuş, mühasib vəzifəsinə qədər işləmişdi.

Həm də işləyə-işləyə Azərbaycan Xalq Təsərrüfatı institutnu qiyabi olaraq bitirmişdi.

Atam olduğu üçün demirəm. Ancaq bunu bütün Laçınlılar yox, həm də kənar rayonlarda yaşayan atamın dostları da bilir ki, atam, tayı-bərabəri olmayan

bir insan idi. Gözəl xasiyyətli, sakit təbiətli, İmam Əli-Əsgər timsallı bir şəxs olmuşdu. Heç kimin xətrinə dəyməzdi. Ən yüksək yerlərə başa çəkiləndə də özünü çox sadə aparırdı.

El ağsaqqalı idi. Hamıya əl tutmağı bacarırdı. Atamın qapısına gələn heç vaxt əliboş getmirdi. Dostluğa sədaqəti bitib-tükənməz idi. Etibarda atama Kim çatardı ki? Kiçik bir haşiyəyə çıxmaq istəyirəm.

1974-cü ilin dekabr ayı idi. O qədər qar yağmışdı ki, evdən çölə çıxmaq mümkün deyildi. Atam baş mühasib işləyən vaxt xəzinədar (kassir) atama 300 manat əvəzinə 5000 manat pul verir. Əlbəttə səhv düşür. Atam evə gəldi. Elə bir qar yağırdı ki, belə getsə idi, bütün yollar, izlər bağlanacaqdı. Daha maşınlar hərəkət edə bilmirdi. Atam paltosunu soyunub pulu cibindən çıxaranda gördü ki, pul çox artıqdır. Tez qayıdıb paltosuyu geyindi:

- Mən bu pulu tez onun özünə qaytarmalıyam – dedi.

Artıq gecə düşürdü. Anam nə qədər təkid etdisə də mümkün olmadı. Atam sözə baxmadı.

O vaxt xəzinədar işləyən Gülalı kişi (Milli qəhrəman Oktay Güləliyevin atası) bir də görür ki, pulu kiməsə artıq verib. Yazıq kişi, çox pis vəziyyətdə qalır. Ancaq nə qədər fikirləşirsə də pulu kimə verdiyini bilmir. Deyir ki, kimə desəm də boynuna almayacaq. Ancaq bircə Əsgərovdan başqa. Bəli, atam uzaq məsafəni piyada qarı yara-yara gedərək o pulu həmin gecə kassaya qaytardı.

Atamın həddən artıq böyük hörməti vardı. Hər yerdə sözü keçərli idi. Qann üstünə getsəydi, orada barışıq olardı.

Şirin sözlü, gözəl nitqi vardı. Söhbətindən, sözündən doymaq olmurdu. Uzun yol getsəydin, o qədər maraqldı söhbətlər edərdi ki, uzaq yol yaxın olardı, necə mənzil başına çatdığını bilməzdin.

Atam etibarlı və sədaqətli dost olduğu kimi də onun da yaxşı dostları vardı. İşi ilə əlaqədar atam Qorçu kəndinə gedir. Oradan da Ərikli kəndinə yolu düşür. Onu da qeyd edim ki, Laçının 133 kəndini və yaylaqlarını atam qarış-qarış gəzmişdi. Elə bir yer yox idi ki, oraya ayağı dəyməmiş olsun. Əriklidə Mürşüd adlı dostunun evində qonaq qalır. Səhər kəndə çıxanda görür ki, bir kişi bir az qoyunla 5-6 keçini bir-birinə qatıb otarır. Kişiyə salam verir. Sonra isə kişiyə deyir ki, bu çəpişi (keçinin balasını) sat alım. Kişi deyir ki, satmaram. Atam nə qədər pul təklif etsə də kişi sözünün üstündə qalır. Onda dostu atama deyir ki, sən burada ol, mən bir saata qayıdaram.

Atam gözləyir. Görür ki, dostu gəlib çıxmaq bilmir. Onda sürücüyə deyir ki, maşını işə sal gedək. Elə bu vaxt görür ki, budur, dostu gəlib çıxdı, yanında da bir

əlik balası. Dostuna deyir ki, ay sağ olmuş, mən bunu neyləyirəm. Çəpiş əti dərman olduğu üçün mən onu almaq istəyirdim.

Dostu deyir:

- Əsgərov, mən mütləq bilirəm ki, o səni tanımadı. O, tutduğu işdən sonra peşiman olacaq. Mən bunu ona görə etdim ki, sənin kimi bir insan ancaq yaxşıların yaxşısına layiqsən. Atamın dostu sonra 2 səpiş ayrı yerdən alıb əlik balasının yanına qoşur.

Üç il o əlik balası – cüyür atamgildə qaldı. 3 ildən sonra isə anamın yaxın qohumu olan böyük bəstəkar Soltan Hacıbəyova atam onu hədiyyə etdi.

Atama çəpiş satmayan kişi sonra gəlib atamın dostu Mürşüd kişidən soruşur ki, sənin yanındakı kim idi ki, sən ona çəpişi yox, əlik verdin. Onda Mürşüd kişi deyir?

- Sən satmadın, guya biz tapmadıq. Mən səndən gözləməzdim. Bilirsən o bizim hamımızın əzizi Əsgərov Əsgər idi.

Atamın adını eşidəndən sonra kişi deyir:

- Vallah heç bilməmişəm. Çünki mən onu ilk dəfə idi ki, görürdüm. Amma, onun necə yaxşı bir insan olduğunu qardaşım deyib. O, qardaşıma bir dəfə elə bir yaxşılıq edib ki, heç vaxt yaddan çıxmaz.

Sonralar o kişi də atam o kəndə gedəndə gedib üzürxahlıq eyləmişdi ki, bəs mən səni tanımamışam.

Anam Raisə xanım Xankəndində, bəy ailəsində dünyaya göz açmışdı. Uşaq vaxtalrından xüsusi tərbiyə və təlim görmüş, bəy qızı kimi böyütmüşdülər. Hətta babamın bir vaxtlar söylədiyinə görə, heç nədən qorxmasın deyə, ona qurd ürəyi də yedizdirmişlər. Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycanın başqa bölgələrində olduğu kimi Xankəndində də bəyləri didərgin salmış, onların var-dövlətləri talan edilmiş, nə qədər əmlakları var idisə, əlindən almışdılar.

Anamın babası, əmiləri və bibiləri də Xankəndindən pərən-pərən düşmüş, İran, Türkiyə və başqa ölkələrə üz tutmuşdular. Azərbaycanda qalanlar isə müflis edilmiş halda ayrı-ayrı bölgələrə köç edib, orada yaşamışlar.

Anamın atası – Qaytaran babam uzun müddət Xankəndindən, ana yurdundan ayrıla bilmir. Lakin, siyasi vəziyyət, digər tərəfdən də təqiblərə məruz qalan babam 40-cı illərdə Laçına köçür və ömrünün sonuna qədər orada yaşayır.

Anamgil 3 qardaş və iki bacı idilər. Böyükləri Telli xalam idi. Xatım-xatın, gözəl və yaraşıqlı xalam 1995-ci ildə rəhmətə getdi. Telli xalam tibb bacısı idi. Bununla belə, çox elmli və savadlı idi. Elmin çox sahələrindən xəbərdar bir ziyalı qadın olmuşdu.

Böyük dayım Saday, ikincisi Aydın, üçüncü dayım isə Seymurdur. Onu da qeyd edim ki, dayım Aydın 1992-ci ildə müharibədə şəhid oldu.

Hələ kiçik yaşlarından anama fars dilini öyrətmək üçün babam xüsusi müəllim tutur. Anam 8 yaşında ikən iki erməni uşağının bir-biri ilə dalaşdığını eşidən anam gülür: Babam ondan soruşur ki,

- Sən nə üçün güldün?

Anam cavab verir:

- Ata, uşağın biri o birisinə gülməli söz deyir.

Babamın acığı tutur:

- Sən necə başa düşdün ki, bu gülməli söyüşdür?

- Ata, müəllimim mənə erməni dilini öyrədib, onun üçün də mən bunu bilirəm.

Artıq işin üstü açılmışdı. Babam hər yerə adam saldırır. İşini bilən müəllim o qaçan qaçır. Sən demə fars dilini bilən bu müəllim əslən erməni imiş. Bic, millətpərəst olan bu erməni müəllim anama fars dilinin əvəzinə erməni dilini öyrədirmiş. Özü də elə mükəmməl ki, heç bir sözdə, heç bir səhvə yol vermədən danışmağı. Onu da qeyd edim ki, babam özü fars dilində yaxşı bilirdi və dürüst danışırdı. Fars dilini yaxşı bildiyi üçün həmişə radioda İrandan verilən verilişlərə qulaq asardı. Azərbaycanda məhərrəm ayını,, orucluq ayının qadağan edildiyi bir vaxtda Laçına bu ayların dəqiq vaxtını həmişə babam deyərdi.

Həmin vaxtlarda heç yadımdan çıxmaz. Məhərrəmlik ayında, aşura günündə anam imam ehsanı bişirər və şərbət paylayardı. Bu işlərin qadağan olunmaına baxmayaraq anam bu ayinləri yerinə yetirər və heç nədən çəkinməzdi.

Babamın qardaşlarından biri o vaxtlar İrana mühacir etmişdi. Babam həmişə radioda İrana qulaq asanda səksəkəli halda «bəlkə qardaşımdan bir xəbər var» deyə sakitcə oturardı. Ölən günə qədər öz bəylik qürurunu, şəxsiyyətini saxlayan babam 1983-cü ildə dünyasını dəyişdi.

Şirinbəyovlar nəslinin sonuncu oğlu babam idi.

Sən demə bəy ailəsindən olan babamgili ermənilər öz «qara siyahı»larında birinci yerdə saxlayırlarmış. Baxmayarq ki, babam Laçına 1940-cı illərdə köçür, o günə qədər onlara göz verib işıq vermirmişlər.

Ana nənəm – Məstan Rzaqulu qızı əslən Laçın rayonunun Pirənis kəndindəndir. Abırlı-həylaı, həddən artıq sakit olan bu xanım nənəm ölən günə qədər yaşmağı ağzından açmadı. Piçənis kəndindən böyük bir nəsil Xocalıda yaşayırdılar. Nənəmin bacıları və bacısı uşaqları da Xocalıda olurdular. Ermənilərin Xocalıya etdikləri vəhşilik və soyqırım da onlardan yan keçmədi. Anamın çoxlu qohumlarından əsir düşənlər də oldu, ölənlər də.

Nənəm ağzı dualı, əlləri göydə olardı. Qarğış nə olduğunu bilməzdi. Həmişə sülh tərəfdarı idi. Babam çox zəhmli bir kişi olduğu üçün, nənəm onun bir

baxışından nə istədiyini bilərdi. Ona görə də heç vaxt qoymazdı ki, babamın bir sözü iki olsun.

1960-cı illərdə bir dəfə babam bir nəfər tanışla Xankəndinə nə isə almağa gedirlər. Orada gecələməli olurlar. Həmin adam bir nəfər erməni tanışının burada yaşadığını deyir. Onda razılaşırlar ki, gedib o tanışı gildə qalsınlar.

Babam görür ki, o erməni babama çox baxır. O, babamdan adını soruşanda babam adını səhv deyir.

Gecədən xeyli keçir. Birdən babam bir səs eşidir. Eşidir ki, evlərində qaldıqları erməni kimə isə deyir:

- Mən soruşdum, ancaq o adını düzgün demədi, mütləq o Qaytarandır. Heç vaxt səhv etmərəm, özüdür ki, var.

- Onda qoy gecə yarıdan sonra ikisini də öldürüb səhərə yaxın Şuşa yoluna atarıq. Qoy elə bilsinlər ki, öz Azərbaycanlısı öldürüb. Heç kim bizdən şübhələnməz.

Bunları eşidən babam tez o biri kişini yuxudan oyadır. Məsələni olduğu kimi ona danışır. Elə o saatda da yorğanı, yerlərinə bükülü qoyub, başa düşməsinlər deyə oradan uzaqlaşırlar.

Babam erməni xəyanətini o qədər çox görmüşdü ki, saysız-hesabsız əhvalatlar danışardı. Hamısı da erməni xəyanətindən. O, söyləyərdi ki, ermənilər xaricdən Azərbaycana gətiriləndə və onlar yerləşdirəndə onların hər pis üzlərinə mən yaxşı bələdəm. Yeri düşəndə yaltaqlıq, yeri düşəndə yazıq olmaq, yeri düşəndə biclik yeritmək, siyasətə əl atmaq, insanı qətlə yetirmək, sui-qəsd hazırlamaq, iğtişaş salmaq və.s.

Babamın son dövrlərə qədər Qubadlıda yaşayan qohumlarından çoxunun belə faciələrə düçar olması bunu sübut edirdi. Babamın söhbətlərinə görə xalası uşaqlarının ikisinin belinə qaynar samovar bağlayıb işgəncə ilə öldürüblər. Xalası nəvələri isə erməni qızları vasitəsilə aldadılıb tarla kənarına gətirilib və oradaca güllələniblər. Bu qədər ermənilərdən yanıqlı olan babam ölən günə qədər ermənilərlə barışmadı.

Laçının bir böyük rayon və 133 kəndi ilə birlikdə orada cəmisi rayon mərkəzində üç erməni ailəsi yaşayırdı. Bu ailələrdən ikisi babamgilə qonşu idi. Bu bir təsadüf idimi, ya düşünülmüş idi, onu deyə bilmərəm. Onu deyə bilərəm ki, babam həyətdə olanda onlar çölə çıxa bilmirdilər. Bir gün onlardan biri olan, bazarda bir mağazada satıcı işləyən Tamara adlı erməni anama deyir:

- Ay bacı, sənin atanın əlindən biz çölə də çıxa bilmirik. Məhlədə su kranı ola-ola gözləyirik ki, axşam olsun, gedib evimizə su gətirək. Bizə elə bil ki, bu geniş dünyanı başımıza dar eyləyib. Mən bilmirəm ki, dərdimizi kimə deyək.

- Ay Tamara, axı danış görək nə olub? Atam sizə neyləyib?

- Axı neyləyəcək? Bizi görən kimi əlinin hərəkəti ilə deyir ki, başınızı kəsəcəyəm. Biz də vallah qorxudan bilmirik ki, nə eyləyək. Onsuz da biz bilirik ki, sənin atan ermənilərdən yanıqlıdır. Biz buna neyləyək? Bizim də ermənilərdən

zəhləmiz gedir. Ona görə də ömürlük sizə bağlanmışıq. Biz yazıq adamlarıq, axı kimə neyləyəcəyik?

Anam Tamaranı sakitləşdirdi:

- Ağlama, ay Tamara. Mən özüm atamla danışaram. Görüm, bu qoca yaşlarında axı o niyə belə edir?

Ertəsi gün anam babamgilə getdi.

- Ay ata, sən bu yazıq ermənilərdən nə istəyirsən? Onlarla nə işin var. Qoymursan rahat nəfəs alsınlar.

Babam bir az duruxdu. Sonra dedi:

- Mən onların iç üzünə yaxşı bələdəm. Səni görən kimi başlayırlar yazıq-yazıq ağlamağa. Amma, yadında saxla. Onlar burada elə-belə yaşamırlar. Mütləq onların bir pis niyyətləri var ki, onlar da bu pis niyyətlə burada yaşayırlar. Mən onları bir gecənin içərisində hamısını öldürərəm, of deməərəm. Ancaq bir şeydən qorxuram ki, həbsə düşəm, balalarımın başına töhmət olam. İstəmərəm ki, övladlarım başıaşağı gəzsinlər.

Anam dedi:

- Deyəsən qocalmısan, birdən pis fikirlərə düşərsən! Onda biabır olarıq. Onlarla işin olmasın.

Babam dedi:

- Ay balam. Mən qocalmışam. Ölüb gedəcəyəm. Bir böyük rayonda yaşayan bu üç erməni ailəsi nə niyyətlə burada yaşayırlar onu sonra biləcəksiniz. Bir vaxtlar olacaq. Onlar bu yerləri də sizin əlinizdən alıb sizi çöllərə salacaqlar. Əgər sağ qalanınız olsa, onları məndən yaxşı tanıyan yoxdur.

İllər ötüb keçdi. Babamın dedikləri hamısı öz yerini tutdu.

Alınmaz qala olan Şuşa, Laçın Sovet siyasətinin, erməni hiyləsinin, başsız Azərbaycan hökumətinin qurbanı oldu. Eləcə də o biri rayonlarımız.

«Daşnaksütun» partiyasına sədaqətlə xidmət göstərən bu 5-6 yazıq erməni millətçiləri sən demə gizlin-gizlin Laçının xəritəsini hazırlayırmışlar. Həm də bütün məlumatları gizlincə o partiyaya ötürürlərmiş.

Atam və anam hələ kiçik yaşlarından Rəsmzidə bir dağlar oğluna məxsus qürurluq, bir qorxmazlıq görürdülər. O, böyüdükcə həm ailənin, həm də qohum və qonşuların sevimlisi olurdu. Qarabuğdayı çöhrəsində sanki bir şirinlik vardı. Bəzən özünə, yaşına yaraşmayan sözlərlə danışardı. Öz tay-tuşlarından çox özündən böyük oğlanlarla, kişilərə meyl göstərirdi. Birdən də özünü yekə kişilər kimi aparırdı.

Atam işi ilə əlaqədar kəndlərə və bölgələrə tez-tez gedərdi. O zaman atam ilə bərabər Rəmzi də gedərdi. Bəzən soyuq olardı, bəzən yağış yağardı. Atam səs

eşitməsin deyə sakitcə durub getmək istəyərdi. Deyərdi ki, qoy hələ yatsın. Bir də baxardı ki, Rəmzi oyanıb və paltarlarını da geyinb hazır dayanıb. O, bəlkə də gecəyarıdan oyanıb və səhəri gözləmişdi…

Rəmzinin maraq dünyası o qədər böyük idi ki, sual verməkdən doymazdı. Hətta suallarına cavab almasa belə əl çəkməzdi. Özündən böyük işləri görməyə can atardı. Gücü çatmasa belə ürəyindəki təpər buna imkan verirdi.

Artıq məktəb yaşı çatmışdı. Məktəbə getdi. 1-ci sinfi bitirəndə çox sevinirdi. Bir gün ondan soruşdum:

- Rəmzi, nə üçün bu qədər sevinirsən?

Cavab verdi:

- Bacı, artıq məktəbi bitirmişəm. İndi də atamla işləyəcəyəm.

Mən güldüm:

- İndən belə 9 il oxuyacaqsan.

- Eybi yox bacı, həm oxuyaram, həm də yay tətilində işləyərəm.

Şirin xaktirəli məktəb illəri onun üçün daha da gözəl idi. Sinif yoldaşlarına, məktəb uşaqlarına o qədər qaynayıb-qarışmışdı ki, hansı şagirdi soruşsan o tez cavab verərdi ki, mən onu tanıyıram. 8-ci sinifdə oxuyanda müəllim müstəqil inşa üçün mövzu yazdırmışdı. Mövzu belə idi: «Sən böyüyəndə kim olmaq istəyirsən?»

O gecə Rəmzi çox fikirləşdi. Axırda üzünü mənə tutub dedi:

- Bacı, mənə kömək et, bu inşanı yazım.

Dedim:

- Mən inana bilmərəm ki, sən bu inşanı yaza bilməyəsən.

Cavab verdi:

- Bilirsən məni çətinliyə salan mənim kim olmağımdır. Yalandan yaza bilmirəm.

- Yalandan niyə. Düzünü yaz.

Dedi:

- Əgər mən desəm ki, mən hərbçi olmaq istəyirəm, onda mənə heç kim inanmaz. Amma yalan demirəm, doğurdan da arzum hərbçi olub vətənimi qorumaqdır.

Mən ona kömək etdim. Çox gözəl bir inşa yazdı. Sabahısı gün sevincək gəldi.

Doğrudan da hərbçi olmaq yaxşıdır. Onun üçün də mən inşadan 5 qiyməti almışam – dedi.

Rəmzi çox qoçaq idi. Hansı işin dalınca gedirdisə, hökmən o iş həll olunmalı idi. Hərdən elə olardı ki, anam onu evə bazarlıq etmək üçün göndərərdi. O qədər

gözəl bazarlıq edərdi ki, heç kim inanmazdı ki, bu bazarlığı orta məktəbdə oxuyan bir şagird edib.

Rəmzi həm də əliaçıq və səxavətli idi. Nə alardısa pulunu artıq verərdi. Deyərdi ki, satan adam yazıqdır. Hətta ağzının tikəsini belə çıxarıb kim istəsə idi verərdi.

Rəmzinin orta məktəb müəllimləri ilə həddən artıq səmimi münasibətləri vardı. Gözəl təşkilatçı və qoçaq olduğu üçün müəllimləri ilə ünsiyyəti möhkəm idi. Məktəbin bütün işlərində fəal iştirak edirdi.

8 mart bayramı gələndə o başqa şagirdlər kimi hərəkət etməzdi. Adətən o vaxtlar qadın müəllimlərinə dəsmal və duxi hədiyyə edərdilər. Rəmzi hər bir müəllimə ürəyindən nə keçirdisə onu necə olur-olsun öyrənər, həmin hədiyyəni mütləq alardı.

Bir dəfə gördük ki, gedib haradansa Əlibaba Məmmədovun valını tapıb gətirib.

Anam dedi:

- Rəmzi indi maqnitafon ola-ola bu valı neyləyirsən?

Cavab verdi:

- İndi maqnitafonda köhnə mahnılar yoxdur. Müəllimlərdən birinin isə bilirəm ki, Əlibaba Məmmədovun qabaq oxuduğu mahnılarından xoşu gəlir. Mən də istəyirəm ki, müəlliməmin az da olsa ürəyini açam. Bununla o müəlliməsinə olan hörmətini ifadə edirdi.

Evimiz məktəbə yaxın olduğu üçün nə lazım olardısa, Rəmzi tez evə gələrdi və heç kimə bir söz demədən lazım olanı götürüb məktəbə apardı.

Biz səkkiz uşaq hamımız 1 №-li məktəbdə oxumuşuq. Anam uşaqları ilə həmişə fəxr edirdi. Çünki müəllimlər həmişə anama uşaqlarının tərbiyəsindən və yaxşı oxumaqlarından ağız dolusu danışardılar.

Anam məktəblə həmişə əlaqədə olduğu üçün onu valideyn komitəsinin sədri seçmişdilər. Hər həftə, bəzən həftədə iki dəfə məktəbə gələn anam bir-bir müəllimlərlə görüşər, uşaqları barədə maraqlanardı.

Anamın zabitəli bir görkəmi vardı. Öz uşaqlarından əlavə qonşu uşaqları da, yaxud da uşaqların sinif yoldaşları da anamdan çox çəkinərdilər.

Bir dəfə dərsdən çıxan oğlan uşaqları bir köhnə binanın yanında «aşıq-aşıq» oynayırlar. Oyuna başları elə qarışır ki, evə getmək yaddan çıxır. Saata tez-tez baxan anam dərsin qurtardığını bilir və onda başa düşür ki, onlar haradasa oynayırlar. Anam küçəyə çıxır. Uçuq binaya tərəf gedir. Birdən kimsə qışqırır:

- Ay uşaqlar, tez qaçın. Raisə xala gəlir. Başqa uşaqlar qaçırlar. Bizim uşaqları isə anam evə gətirib, o ki var tənbeh edir.

Böyüdükcə Rəmzinin dostları da çoxalırdı. Tək sinif yoldaşları ilə yox, həm də məktəbdə oxuyan başqa uşaqlarla da yaxınlıq edirdi.

Hələ o yaşlarından onda dostluğa sədaqət və etibar görürdük. Dostluqda o qədər möhkəm idi ki, dostlarının sirrini öz qardaş və bacılarına da deməzdi. Dostunun yolunda ölümə getsəydi belə of deməzdi.

Bəli günlər aylara, aylar illərə çevrilib bir-birini əvəz edirdi. Böyüyən Rəmzinin arzuları da böyüyür və yerə-göyə sığmırdı. Özünə çox güvənirdi.

Məktəbdə oxuyan qızlara hörmətlə yanaşırdı. İkinci növbə dərsdən sonra qış aylarında qaranlıq tez düşərdi. Onda Rəmzi razı olmurdu ki, onlar evlərinə tək getsinlər. Özü aparıb qızları evlərinə qədər ötürərdi. Elə bu hərəkətlərinə görə də həm də yoldaşlarının valideynləri onu çox istəyirdilər.

Ailədə səkkiz uşaq olduğuna baxmayaraq Rəmzinin yeri başqa idi. Bir az da ərköyünlüyü vardı.

Dörd qardaş və dörd bacının içərisində o öz xasiyyətinə görə də fərqlənirdi.

Heç vaxt yalan danışmağı sevməz, yaltaqlıq nə olduğunu bilməz, sözü üzə deyərdi.

Qeybət olunduğu yerdə həmişə deyərdi ki, kimin nə sözü varsa üzə desin. Arxada söz danışmaq kişilikdən deyil. İstər qadın olsun, istərsə də kişi. Ölümü yaltaqlıqdan üstün tutardı. Deyərdi ölərəm, amma qürurumdan enmərəm.

İllər bir-birini arxada qoyduqca Rəmzi cəsur və qoçaqlığı ilə seçilirdi. Laçının bəlkə də bütün kəndlərini gəzmişdi. Dağlara çıxmağı çox xoşlayırdı.

Onun ən çox ünsiyyətdə olduğu atam elə vaxtlar olurdu ki, həftələrlə kəndlərdə olurdu. Onda Rəmzinin sevincinin həddi-hüdudu olmurdu. Bu isə ən çox yaz və yay aylarına təsadüf edirdi.

Elə ki, kənddən gəlirdilər. Atam deyərdi:

- Bu oğlan bir yerdə dayanmır. Bilmirəm, öz işimin dalınca gedim, yoxsa Rəmzinin. Harda uca dağ görürdüsə, mütləq oraya qalxmalıdır. Mən də qorxuram. Deyirəm yıxılıb dərəyə düşər.

Bu tənələri eşidən Rəmzi cavab verirdi:

- Ata, məni o dağlardan məcburi endirməsən, mən saatlarla, bəlkə də günlərlə dağların başında qalaram. Özüm də heç yorulmaram. Bilirsiniz, adam yüksəklikdə olanda hey qanad açıb uçmaq istəyir. Kaş mən də qartal olub zirvələrdə yaşayaydım. Kaş mən də… mən də..

Daşların üstündə oturar, uzun müddət elə hey baxar-baxar, ancaq doymazdı. Çünki bura onun vətəni idi. Sevdiyi, canından əziz tutduğu vətəni – Laçını. Bəli, bu onun vətənə, torpağa bağlılığını göstərirdi.

Şənbə və bazar günlərində Laçın şəhərinin aşağı hissəsində axan Həkəri çayının sahilinə gəzməyə gedərdik. Çaya baxmaqdan heç doymazdıq. Rəmzi deyərdi:

- Çay elə axır ki, elə bil adamın yuxusu gəlir. Bu qıjıltı heç bir səsə bənzəmir.

Bəlkə də çayın səsinə, ana laylası, insanın ruhunu oxşayan nəğmə demək istəyirdi. Amma, belə izah edə bilmirdi. Çünki, ana laylası vətən-vətən ana laylası demək idi. O, öz yaşına uyğun elə başa düşürdü ki, hər bir insanın vətəni belə olur və belə də olar…

Uzun qış gecələrində ata nənəmiz Nənəqız nənmin söylədiyi nağıllardan heç doymazdı Rəmzi. «Ay nənə, birini də danış» deyərdik.

Anam bizə acıqlanardı:

- Gecə keçir, imkan verin nənəniz yatsın. Amma, hamımız bir ağızdan:

- Nənə, birini də söylə.

Rəmzi də nənəmin dizinin dibindən aralanmazdı. Nağıllar dünyasında nə vaxt yuxuya gedərdi, heç özü də bilməzdi.

Divə, əjdahaya qalib gələn nağıl qəhrəmanlarına sanki oxşamaq istəyirdi.

Atam çox söhbətcil idi. Elə gözəl söhbətlər edərdi ki, bir də görərdin ki, başqa bir aləmdəsən. Atamın söhbətlərindən doymaq olmazdı.

Hələ cavan yaşlarından Sədinin, Hafizin əsərlərini o qədər oxumuşdu ki, çoxunu əzbər danışardı. Şərq ədəbiyyatına, dünya ədəbiyyatına yaxşı bələd idi.

Laçının bütün bölgələrinə çox getdiyi üçün oraların tarixi ilə maraqlanar və böyüklərdən, yaşlılardan eşitdiyi maraqlı hadisələri, rəvayətləri gözəl bir nitqlə nağıl edərdi.

Atam o qədər bədii kitablar oxumuşdu ki, söz ehtiyatı bitib-tükənməzdi. Mənim ağlım kəsəndən atamın kitabxanasında demək olar ki, tapılmayan kitab yox idi. Məni ədəbiyyata yönəldən də atam olmuşdu.

Bir dəfə atam evə qalın üzlü bir kitab gətirdi. Kitabın üstünü tez oxudum. Gürcü yazıçısı Şota Rustavelinin «Pələng dərisi geymiş pəhləvan» əsəri idi. İş adamı olduğu üçün, gündüzlər vaxtı olmurdu. Axşamlar isə kitab oxuyardı.

Bəli, kitabı gətirdi. O gecə yatmadı. Axşamdan oxumağa başladı. Biz yuxudan duranda artıq kitabın sonuncu səhifəsini oxuyurdu. Bir gecəyə bir əsər oxumaq… Hər insanın işi deyildi.

Atam oxuduğu kitabın qısa məzmununu da olsa belə bizə danışardı.

Deyəsən, mövzudan bir az aralandım. Onu demək istəyirdim ki, atam Kürdhacıda, Çalbayırda olanda (orada atamın çoxlu dostalrı vardı) Soltan bəy haqqında çox hadisələr öyrənmişdi. Bəzən gecələr oturub Soltan bəyin qəhrəmanlıqları haqqında o qədər hadisələr danışardı ki, bir-birindən maraqlı. Soltan bəyin ermənilərə necə toy tutması, tat dərəsindəki vuruşmalarından tutmuş tək Zəngəzur qəzasını yox, həm də bütün Qarabağa və Azərbaycanın ayrı-ayrı bölgələrinə yayılan qəhrəmanlıqları haqqında danışardı.

Bütün bu söhbətlərə maraqla qulaq asardıq. Ən çox da maraq dünyası geniş olan Rəmzi. Bir dəfə Rəmzi atama dedi:

- Ata, məni də özünlə Soltan bəyin kəndinə apar. Mən də oraları görmək istəyirəm. Atam dinmədi. Rəmzinin iri qara gözləri atama zilləndi.

Yazda atam onu Soltan bəyin yaşadığı kəndə aparmışdı. Adı yadımdan çıxıb. Atamın dostlarından biri Soltan bəyin də yxaın qohumlarından bir kişi Rəmziyə Soltan bəyin gümüş saplı xəncərini yadigar olaraq bağışlamışdı. Uzun illər həmin yadigar xəncər evdə ən əziz bir xatirə olaraq qalırdı. Erməniəlrin işğalında Xəncər evdə divarda asılı idi.

Biz şəhərin mərkəzində yaşayırdıq. Hər il məktəb tətili başlayan kimi atam da isti çəkməyək deyə bizi yaylaqlara, üç ay yayı dincəlməyə, istirahət etməyə aparardı. Hamımız orta məktəbi qurtarıb, ali məktəbə gedənə qədər yay aylarında Qara göl yaylağında, Minkənd istisuyunda, Qovuşuq kəndində istirahət edib dincələrdik.

Ana təbiət elə bil bu yeri əzizləmiş, nə qədər gözəlliklər varsa, hamısından Qara gölə pay vermişdi. Əsrarəngiz gözəllik məkanı – Qara göl. Gölün hər tərəfi dağlarla əhatə olunmuşdu. Dağların ətəkləri çəmənlik, çəmənlikdə isə hər növ gül-çiçək. Adam baxdıqca doymazdı bu gözəllikdən. Dəniz səviyyəsindən 1500 m yüksəklikdə olan bu yaylağa ən çox yaxın kəndlərin, kolxoz və sovxozların heyvanlarının yay otlaq sahəsi idi. Ən çox ata məkanım olan Qarqışlaq, sonra Sadınlar, Quşçu və.s. kəndlərin heyvanlarının otlaq yeri idi. Bununla bərabər maşın-maşın adamlar istirahətə gəlir, burada olduğu müddətdə təbiətdən zövq alır, çınqıllı bulaqdan heç olmasa ürəyi sərinlədən bir stəkan su içirdilər.

Çınqıllı bulaqın suyu o qədər soyuq olurdu ki, heç kim bir stəkan suyu axıra qədər içə bilmirdi. Deyirdilər ki, suyun belə soyuq olmasının səbəbi elə çınqıllardır. Səhərlər qoyun-quzu səsinə yuxudan oyanardıq. Şehli çəməndə ayaqyalın qaçardıq. Deyirdilər ki, ayaqyalın şehin üstü ilə yeriyəndə bu ayaqlara çox xeyirdi. Bütün yay uzunu o yer qalmırdı ki, oranı gəzməmiş olaq. Ancaq «Ayı dərəsi»ndən başqa. Orada qar olurdu. Qarın səbəbinə oraya gedərdik. Ancaq deyirdilər ki, həqiqətən də orada ayı görənlər olub. Qardan əlimizə bir az götürən kimi ayının qorxusundan tez qaçardıq.

Gölün hər tərəfi dağ ilə əhatə olunmasına baxmyaraq birdən göldə elə bir ləpə qopurdu ki, heç yaxına da getmək olmurdu.

Yaşlı adamlar söyləyirdilər ki, bu göl çox müqəddəsdir. Əgər ora çirkli bir şey atılardısa, onda bu göl belə fəğan edir və ləpələr o çirkləri vurub çıxarır.

Gölün suyu qıraqdan baxanda gömgöy görünürdü. Ancaq axşamlar isə sanki qara rəngə boyanırdı. Bəlkə elə buna görə də bu gölə Qara göl adı vermişdilər.

Qara göl haqqında çoxlu rəvayət və əfsanələr söyləyirdilər. Deyirdilər ki, qış aylarında gölün üstündə çoxlu qalın buz təbəqəsi olur. Yaxın kəndlərə gedən adamlar yollarını kəsə etmək üçün buzun üstü ilə gedirmişlər. Oradan keçən Azərbaycanlılar çox asanlıqla keçirlər. Buz tərpənmir. Qara göl Azərbaycanın sərhəddində yerləşir. Oradan Ermənistanın Gorus rayonuna və yaxın kəndlərinə getmək asan idi. Bir neçə erməni də istəyir ki, göldən keçib yollarını yaxın etsinlər. Buz qırılır, ləpə qopur və ermənilər də gölün düz ortasında, ən dərin yerində batırlar. Belə söyləyirdilər ki, həmin il yaz açılır və gölün ləpələnməsi dayanmır. Axır ki, ermənilərin meyidlərini ləpə vurub gölün qırağına çıxarır.

Qara gölün suyunda duzluluq yox idi. Bu su həmi şirin həm də ağır idi. Gölün qıraqları dayaz olmağına baxmayaraq suya nə isə düşəndə və adamlar çiməndə su çəkib gölün ortasına aparırdı. Yəqin ki, gölün axacaq yeri var idi.

Belə söyləyirdilər ki, keçmişdə bir nişanlı qız gölün qıraqında paltar yuyurmuş. Birdən qızın nişan üzüyü barmaqından sürüşüb gölə düşür. Qız nə qədər gəzirsə üzüyü tapa bilmir. O, vaxtki adətlərə görə nişan üzüyünü itirmək böyük bir günah və etibarsızlıq sayılırdı. Ancaq qız bu sirri heç kəsə demir. Aradan xeyli keçir. Qızın nişanlısı naxırı otaran zaman Əli bulaqından əyilib su içmək istəyir. Bir də görür ki, onun nişanlısına verdiyi və üzərində müəyyən işarəsi olan nişan üzüyü bulaqın gözündədir. Oğlan üzüyü götürür. Qıza xəbər göndərir ki, sabah onunla görüşsün. Görüşdə oğlan qızdan soruşur ki bəs sənin nişan üzüyün hanı? Qız əvvəlcə qorxusundan heç nə demir. Birdən oğlan cibindən nişan üzüyünü çıxarıb qıza göstərəndə qız tez deyir ki, sən allah məni bağışla. Göldə paltar yuyanda barmağımdan sürüşüb gölə düşdü. Ancaq nə qədər gəzdinsə tapa bilmədim. Bəs necə oldu ki, sən bunu tapa bildin?

Oğlan məəttəl qalır. Deyir:

-Sən nə danışırsan? Mən üzüyü Əli bulaqından tapmışam.

Deməli gölün dibindən sızan su Əli bulaqına gedirmiş.

Gölün qıraqlarında böyük qayalar vardı. O qayaların birində gecələr işıq yandığını görənlər olub. Ona «çıraq daşı» deyirdilər. Bəlkə də o işıq gecələr qara rəngdə olan gölə işıq verirmiş. Kim bilir, bəlkə də.

İşıqlı dağ, Keçəl dağ – hamısını gəzərdik. Gecələr isə dünyagörmüş Nurxanım nənənin söylədiklərini, dediklərini yaxşı-yaxşı dinləyərdik. Nurxanım nənə Qarıqışlaq kəndindən idi. Yaşlı, ancaq nurlu sifətindən həmişə nur yağan bu qadına yəqin ki, bu adı əbəs yerə qoymamışdılar. Nurxanım nənə Qaçaq Nəbini öz gözləri ilə görmüşdü. Söyləyərdi ki, Nəbi bizim kəndə gecələr gələrdi. Özü də atamla dost olduğu üçün bizim evədə qalardı. Onlar səhərə qədər söhbət edər, səhər isə o başdan xoruz səsi eşidilməmiş, heç kim onu görməsin deyə gedərdi. Onun zalım xanlardan, bəylərdən çox, qisas alacağı ermənilər idi.

Bəli, Qara göldə, Keçən dağın başında Qaçaq Nəbinin qurduğu səngərləri, oturub dincəlmələri üçün düzəltdikləri yerləri öz gözlərimlə görmüşəm. Dağ başındakı səngər ağır-ağır daşlardan qurulmuşdu. Daşların aralarından isə top atmağa yer qoymuşdular.

Yaşlı adamlar söyləyirdilər ki, Qaçaq Nəbi buradan, yüksəklikdən onun üstünə qoşun toplayıb gələn erməni çinovniklərini və onun qoşunlarını top atəşinə tutar, onları darmadağın edərdi. Onun qorxusundan heç kəs cürət edib bu tərəflərə gələ bilməzdi.

Maraqlı idi. Sanki Nəbi bu yerlərdə təzəcə olmuşdu. Səngərdən bu yanda yastı-yastı daşlardan stul kimi düzəltdikləri daşların yanında bizi təəccübləndirən bir şey də vardı ki, onu demək istəyirəm. Bütün bunlardan əlavə daşdan bir yüyrük də düzəltmişdilər. Məətəl qalmalı iş idi. Deyirdilər ki, bu yüyrüyü Nəbi özü daşdan hazırlayıb. Bəs necə olub ki, övladı olmayan Nəbi bu uşaq beşiyini hazırlayıb. Mənə elə gəlirdi ki, Qara gölü müqəddəs yer kimi tanıyan Nəbi, bəlkə də övlad ümidini itirməyib. Bir arzu, bir niyyət kimi uşaq beşiyini hazırlayıb ki, gələn ilə qədər onun övladı olsun. Çünki çox adamlar bayaq söylədiyim kimi «Çıraq

daşı»na nəzir qoyardılar, arzularına, niyyətlərinə çatardılar. Ora qoyulan nəzirə isə heç kim əlini də vurmazdı. Bu nəzirləri ya bir imkansıza, ya da şikəstə verərdilər. Ona görə də nəzir qəbul olunardı.

Biz üç ay yayı orada, Qara göldə qalardıq. Bayaq dediyim kimi Qara göl Azərbaycanın sərhəddində yerləşirdi. Ermənilər Gorus rayonuna, Gorusun kəndəlrinə və əkin yerəlrinə göldən motor ilə su çəkmişdilər. Gölün suyu şirin olduğu üçün, istifadəyə yararlı idi. Ermənilər gölün qırağında kiçik bir tikili tikib, içinə də motor qoymuşdular. Motor demək olardı ki, sutqanın 20 saatını işləyirdi. Mən hələ onda orta məktəbdə oxuyurdum. Amma, bu mənə çox pis təsir edirdi. Elə hey fikirləşirdim: «necə olur, yaylaq bizim, göl bizim, yer bizim, ancaq gölün suyunu onlar öz xeyirləri üçün istifadə edirlər. Məgər, bunu biz eyləyə bilmərik? Niyə də gözümüz özümüzə bağlıdır?» Elə hey fikirləşərdim… Səhər açılanda uşaqlarla sözü bir yerə qoyardıq ki, gedək motoru qıraq. Ancaq oraya ermənilər növbə ilə keşik çəkirdilər.

Bir gün eşitdik ki, gölə bir qayıq gətiriblər. Biz hamımız ora qaçdıq. Nə görsək yaxşıdır? Sevan-Göyçə gölünün balıq kürüsündən ermənilər oraya – Qara gölə tökürlər. Demək o vaxtdan sən demə oraya yiyələnirmişlər. Elə də oldu. Artıq gələn il balıqlar böyümüşdü.

Bütün bu işlərə nəzarət edən Sedrak adlı bir erməni quldduru idi. O, tez-tez gölə gəlir, oralara nəzarət edir, bütün işləri səhmana saldıqdan sonra çıxıb gedərdi.

Bir dəfə bir QAZ-51 markalı maşın dolu ermənilər dincəlmək, yeyib-içmək üçün gölün qırağına gəldilər. Mənim qardaşım Rövşən dedi ki, onları qəlbim götürmür ki, gəlib bizim yaylaqda at oynatsınlar. Onalra daş atmaq istəyəndə daş maşının işıq şüşəsinə dəydi və şüşə qırılıb yerə töküldü.

Ermənilər tez tökülüşdülər. Daşı atanı axtarmağa başladılar. Birdən quldur Sedrak gəldi, nə gəldi. Dedi ki, daşı kim atıb maşının şüşəsini qırıb, desin! Əgər deməsəniz bütün uşaqları yığıb Gorusa- milis idarəsinə aparacağam. Uşaqlar çox qorxdular. Mən tez alaçığa qaçıb anama xəbər verdim. Anam həmişə evimizdə olan tüfəngi götürdü və uşaqlar olan yerə gəldi. Bir də baxdıq ki, Sedrak uşaqları elə düzüb ki, elə bil almanlar əsir uşaqları düzdüyü kimi. Anamın əlində tüfəngi görən Sedrak özünü itirdi.

- Ay bacı, belə də iş olar? Mən bilirəm sizin uşaq deyil. Amma kimin uşağıdırsa adını da demirlər.

Anam dedi:

- De görüm nə olub axı?

- Nə olacaq, ay bacı. Daş atıb maşının işıq şüşəsini qırıblar.

- Ay Sedrak, bunlar uşaqdırlar. Bilməyiblər, daş atanda maşının şüşəsinə dəyib qırılıb. Böyük bir şey olmayıb ki, uşaqlarla işin olmasın, nə xərci varsa hamısını mən verərəm. Gedib təzə şüşə alıb maşina taxarsınız.

Onda Sedrak qızışdı:

- belə olmaz, gərək bu uşaqları mən milisə aparam ki, bir də belə qələt etməsinlər. Ermənin maşınını, sizin uşaqlar daş ilə vuralar.

Anam içi patronla olan tüfəngi Sedraka tərəf çevirdi:

- Götür küçüklərini, tez buradan rədd ol, yoxsa beynini dağıdaram. Hacılar kolxozunun 40 baş quzusunu sən oğurladın, sənə heç nə demədilər. İndi nə var, nə

var, uşaq bir şüşə qırıb. Bir də köpək oğlu sənin buradan keçəndə bir də səsini eşitsəm özüm səni öldürəcəyəm. Dinməz-söylənməz tez buradan uzaqlaş. Tülkü kimi hiyləgər və qorxaq olan Sedrak bilmədi nə etsin. Rəngi ağappaq ağardı:

- Bacı, sənə qurban olum. Mən yazıq nə deyirəm ki, hamısı sizə qurban.

Elə o saat da dincəlib, yeyib-içməyə gələn ermənilər maşina doluşaraq çıxıb getdilər.

Ondan sonra bir də onun səsini eşitmədik. Qorxaq və hiyləgər olan Sedrak həmişə dilağız edirdi:

- Bacı, mən sakitcə buradan keçirəm – deyirdi.

Anamın qoçaq, qeyrətli bir qadın olmasını bütün Laçınlılar yaxşı bilirdi. Yeri düşmüşkən bir olmuş bir əhvalatı danışmaq yaxşı olardı.

Anam hələ cavan gəlin vaxtında, yəni, iki körpəsi ilə birlikdə atam Minkənd İstisuyunda alaçıq qurub onları orada yerləşdirir ki, burada üçə ay dincəlsinlər. Anamgilin alaçığı ilə babamgilin alaçığı bir-birinə yaxın olur.

Bir neçə gündən sonra bir qadın özünə görə kiçik bir alaçıqla ora gəlir. Anamın söylədiyinə görə qadın deyir ki, bəs tək adamam. Özyüm də Ağcabədi rayonundan gəlmişəm. Anama deyir:

- Qızım, icazə verin mən də sizin alaçığa yaxın tikilim. Ayaqlarım ağrıyır. On beş gün burada qalıb istisu qəbul edəcəyəm. Özü də mən ziyankar adam deyiləm. Qərib olduğum üçün sizi özümə yaxın bildim.

Anam deyir:

- Xala, haradan gəlmisən, xoş gəlmisən. Nə olar? Atamgil bir böyrümdə, sən də o biri böyrümdə tikilərsən. Nə köməklik lazım olsa biz edərik. Elə də olur. Qadın anamgilə yaxın alaçıq qurur.

Anam deyirdi ki, bu kök qadının böyük bir qara çamadanı var idi. Gündüzlər isti suya gedəndə çamadanı bizə qoyur, axşamlar isə başının altına qoyub yatardı.

Çox vaxt oturub anamla söhbət edir. Deyir ki, ailə qurdum, amma övladım olmadı. Neçə illər yoldaşımla birgə yaşadıq. Axır ki, mən özüm ondan ayrıldım ki, qoy gedib evlənsin və uşağı olsun. İndi tək yaşayıram. Özüm də alver edirəm. Allaha şükür heç kəsə ehtiyacım da yoxdur. Bir bacım var, o da məndən uzaqda yaşayır.

Həmin qadın bir gün kök bir qoyun alır. Ondan soruşurlar ki, tək adamsan. Neyləyirsən bu qoyunu. O da cavab verir ki, dağ heyvanını əti çox xoşuma gəlir. Qayıdanda aparıb kəsib qovurma edəcəyəm. Bir qışı mənə bəs edər.

Bir müddət keçir. İstisu dərəsi çox qaranlıq olurdu. Bir gün gecənin bir yarısında qadın qışqırır ki, mənə kömək edin. Bəs qoyunumu apardılar. Sən demə arvad qoyunun ipinin bir ucunu ayağına bağlayırmış.

Anam həmişə içi patronla dolu olan qoşa lülə tüfəngi götürüb çölə qaçır. Qadın qışqıra-qışqıra deyir ki, bəs yola tərəf qaçdılar. Anam əlində tufəng heç nədən qorxmadan həmin səmtə üz tutur. Aralıda nə isə qaraltı hiss edir. Tüfəngi tuşlayıb, iki güllə atır. Güllənin biri nəyə isə dəyir. Səs-küyə camaat tökülürlər, fənərlə hər yeri gəzirlər. Bir də görürlər ki, qadının qoyunu ilə çamadanı buradadır. Sən demə oğrular birinci qoyunu aparırlar ki, onun başı qoyuna qatışanda çamadanı da götürsünlər.

Qadın gecəni anamın yanında keçirir. Səhər açılanda yükünü yığışdırır ki, köçüb getsin. Anamgil nə qədər deyirlərsə heç olmasa bir həftə də qal, o razı olmur. Sonra o anamı çağırıb deyir:

- Qızım, bu çamadanın içində hamısı bahalı atres (parça) və puldur. İndi ki, sən bunu oğrunun əlindən saldırıb mənə qaytardın, nə istəyirsən götür!

Anam deyir:

- Xala, mənim heç nədə gözüm yoxdur. Əgər mənə lazım olsaydı, onsuz da çamadanı gündüzlər mənim yanımda qoyurdun, mən heç maraqlanmadım ki, bunun içindəki nədir? Ona görə də mənə heç bir şey lazım deyil.

Anamın təkidlərinə baxmayaraq həmin qadın anama bahalı bir parça verir. Sonra isə köçüb gedir.

Bu olmuş əhvalat dildən-dilə, ağızdan-ağıza gəzir. Böyük yazıçı Qulu Xəlilov öz əsərlərinin birində bu hadisəni çox yaxşı obrazlarla qələmə alır.

Deyəsən, mətləbdən bir az uzaqlaşdım. İllər bir-birini əvəz edir, illərin ayları, günləri şirin bir xatirəyə çevrilir və qəlbimizdə özünə yer salır. Sonralar insan yaşa dolduqca bu şirin xatirələr bəzən acı bir xatirə kimi xatırlanır. Amma, nə qədər acı olsa da bu bir həqiqətdir, xatirədir…

Əvvəlcədən də qeyd etdiyim kimi Rəmzi orta məktəbdə oxuyanda müəllimlərlə bərabər həm də sinif yoldaşları ilə dostluğu və ünsiyyəti möhkəm idi. İndii də məndə yadigan qalan bir günləik var. Orta məktəb illərinin şirin və unudulmaz xatirələri həmin «Xatirə dəftərçəsin»ndədir. Həmin xatirə dəftərini vərəqləyirəm. Hər bir şagird, Rəmzinin sinif yoldaşları öz ürək sözlərini, xatirələrini Rəmzi ilə əlaqədar olan hadisə və söhbətləri gözəl sözlərlə qələmə alıblar.

Gənclik insan ömrünün ən çılğın və gözəl bir dövrüdür. Gənclikdə olan hadisələr heç bir vaxt yaddan çıxmır. İstər dünyanın hər hansı bir tərəfində olursansa ol, bu xatirələr səninlə yaşayacaq. Səninlə ömür sürəcək.

Amma o xatirələri yazan gənclər Rəmzinin sinif yoldaşları və dostları haradan bilərdilər ki, qırmızı üzlü «Xatirə dəftəri»nin sahibi Əsgərov Rəmzi həyatdan nakam gedəcək, onu sevənləri göz yaşına qərq edəcək…

Tələbəlik illərimiz,
Biz nə qədər can atsaq da
Çatmaz ona əllərimiz.
Çatmaz. Ancaq ruhumuzu,
Qəlbimizi alıb bizim,
O illərdə neçə-neçə şirin-şirin
Xatirəmiz qalıb bizim.

Sinif yoldaşlarından Bayramova Dürdanə, Verdiyeva Əminə, İbrahimov Tahir, Süleymanov Tahir, Allahverdiyeva Kəmalə və onlarxa dost və yoldaşlarının yazdıqları xatirələri oxuduqca elə bilirsən ki, Rəmzi həqiqətən də onların qardaşlarıdır, onalra qardaşdan da əzizdir.

Unudulmaz, ömrü boyu yaddan çıxmaz xatirələr…

Yaranan öləcək, unutma məni,
Budur təbiətin əzəl qanunu.
Sözdə, söhbətlərdə xatırla məni,

Mənim də tez çatar ömrümün sonu.

…Əkilsin qəlbimdə məhəbbət gülü,
Gəzincə ürəkdə sevgi bülbülü,
Sevgisi ürəkdə nakam qalanlar,
Dərdimi dünyada bilən ağlasın…

Xatirə dəftərində ən sonuncu şer!
… Siz ey əziz dostum, qohum qardaşım,
Çoxlu tayım, tuşum, əziz yoldaşım,
Qurbanı olduğum torpağım, dağım,
Gedirəm, sağ qalın, ağlayın məni.

Nə biləydin Rəmzi, haradan bilərdin ki, torpağını, daşını sevdiyin vətənindən çox uzaqda bir qəriblikdə uyuyacaqsan.

İllər keçdi. Rəmzi orta məktəbə əlvida dedi. Onun qəlbindəki arzular deyəsən həqiqətə çevrilirdi. Orta məktəbi qurtaran kimi də Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna (İndiki İqtisadiyyat universitetinə) daxil oldu. Sevincinin həddi-hüdudu yox idi. Tələbəlik illəri onun üçün əsrarəngiz sehrli bir dünya idi. Yaşının çılğın, dəli-dolu bir dövrünü yaşayırdı.

Təzəcə bığ yeri tərləyən 17 yaşlı Rəmzi tez bir müddətdə özünü burada da sevdirə bildi. Özünə çoxlu dost və yoldaş tapdı. Hətta, institutun çox müəllimləri ilə də mehribanlıq edir, sanki neçə illərin tanışı kimi onlara bağlanırdı.

Gənclik dövrü və tələbəlik illəri ürəyi həmişə xoş arzularla dolu olan, gənclik eşqi ilə alışıb-yanan Rəmzini daha da gözəlləşdirirdi. Uca boyu, qara şəvə kimi sasları, enli qaşları, qara gözləri,gözəl bədən quruluşu çox qızların ağlın başından alırdı.

Rəmzi özünü dünyanın ən xoşbəxti sanırdı. İnstitutda oxuyarkən tətil olanda doğma yurdu, canından çox sevdiyi Laçına dönür, ana təbiəti seyr etməkdən doymurdu.

Bir dəfə qonşuluqda olan bir oğlan Rəmziyə dedi:

- Rəmzi, mən sənin yerinə olsam, Bakıdan, elə gözəl şəhərdən heç rayona gəlmərəm. Sən isə ayın o başı, bu başı rayondasan. Nə var burada. Heyf deyil şəhər həyatı. Kaş mən sənin yerinə olaydım. Onda heç vaxt Bakını qoyub buraya gəlməzdim.

Rəmzi bu sözlərdən çox tutuldu. Ancaq ona kəsərli cavab verdi:

- Bilirsən, vətənim, elim mənə hər şeydən əzizdir. Mən Bakıda ali təhsil alıram, onun üçün də orada qalıram. Mən institutu bitirəndən sonra mənə nə qədər yüksək vəzifə və pul versələr də yenə öz doğma vətənimə, ana yurdum Laçına dönərəm. Yüz yeri gəzsəm də, ən çox özümü Laçında gümrah və xoşbəxt hiss edirəm. Bir də mənə əziz olan ata və anamın yanında. Yəqin sən bilmirsən ki, torpaq və yurd nə deməkdir. Daha mənim sənə ayrı sözüm yoxdur.

Uca boylu, enli kürəkli Rəmzinin qolları çox qüvvətli idi. Yaşıdları arasında onu güləşdə yıxan, ona qalib gələn olmurdu. Haradan idi onda bu güc-qüvvə? Vətənə olan məhəbbətindən, torpağa olan sevgisindən, qəlbindəki ən xoş arzu və

niyyətlərdən, heç bir kəsin paxıllığını çəkməməyindən və heç kəsə pislik etməməsindən.

Sovet qanunlarından biri də əsgər yaşı çatmış bütün oğlanlar hərbi xidməti yerinə yetirməli idi. Gənc Rəmzi də institutu yarımçıq qoyub hərbi xidmətə yollandı. Moskva ətrafındakı hərbi hissələrdən birində qulluq etməyə başladı.

Vətənindən uzaqlarda, qürbət eldə qulluq etmək onun üçün çətin idi. Özünü sanki qınayırdı. «Bu necə işdir, özüm Azərbaycanlı, yurdum da Azərbaycan, elə bizim özümüz də vətənimizdə qulluq etməliyik» deyirdi.

Amma, hər bir əsgər üçün qanun qanundur. Vətəni üçün, ata-ana, qardaş və bacıları üçün çox darıxırdı. Yaxşı qulluq etdiyi üçün onu bir aylıq məzuniyyətə göndərdilər. Özü məzuniyyətə gəlməmiş Hərbi Hissənin komandirindən valideynlərinə təşəkkür məktubu da gəldi.

Laçına çatanda qollarını açıb doyunca yurdunun havasını ciyərlərinə çəkdi. Elə bil ki, yurdunu qucaqlayıb, onunla salamlaşırdı. Elə bil ki, yurdunun havasını özünə həyat bilirdi.

Beləcə iki il də keçdi. Hərbi xidmətdən sonra yenidən Azərbaycana döndü. Yenidən tələbəlik illəri davam etdi.

Onunla institutda oxuyan tələbə dostlarından bir neçəsi hərbi xidmətə getmişdi. Bir neçəsi isə qiyabi şöbəyə keçmiş, ildə iki dəfə instituta gəlməklə təhsilini davam etdirirdilər. O yenə də mehribanlığı ilə özünə yeni yoldaşlar da tapdı.

Hərbi xidmət – kişilik məktəbi Rəmzini çox dəyişdirmişdi. Boyu bir az da uzanmış, bir az dəyişilmiş və bədəni dolmuşdu.

Xasiyyətində əsl kişilərə məxsus bir təmkinlik və ciddilik hiss olunurdu. Bütün bunlara baxmayaraq əvvəlki dəlidolu və inadkar Rəmzi idi.

1988-ci ilin fevralından başlayan çaxnaşma bütün Qarabağ bölgələri kimi Laçında da özünü göstərirdi. Deyəsən 70-ci illərdə babamın söylədikləir (artıq o rəhmətə getmişdi) erməni siyasəti və ermənilərin iç üzü özünü göstərirdi.

Xankəndi və ətraf kəndəlri ermənilər tamamilə ələ keçirmişdilər. Yollar bağlanmış, vəziyyət gərginləşmişdi.

Belə bir vəziyyət gənc və inadkar Rəmzini Laçına dönməyə vadar etdi. Artıq o institutun 5-ci kursunda oxuyurdu. İnstitutu yarımçıq qoyub gəlməsi atama və anama ağır gəldi. İndiyə kimi oxuyub, indi niyə də institutu yarımçıq qalsın dedilər. Rəmziyə çox israr etdilər:

- Oğlum, qayıt ali məktəbini bitir, sonra yenə də hərbiyə gedib vətənimizi qoruyarsan. İndiyə kimi çəkdiyin zəhmət, oxuduğun illər hədər getməsin.

- Ay mənim ürəyim, canım atam, anam. Sizi dünyada hər şeydən, canımdan da çox istəyirəm. Ancaq yurdumu, vətənimi ölən günə qədər qoruyacağıma and içmişəm. Mənim üçün ən müqəddər yer üstündə dayandığım vətən torpağıdır. Ona görə də məni bu yoldan heç bir amal döndərə bilməz! O ki, qaldı ali məktəbə, siz arxayın olun, rektorla özüm danışıb onun icazəsi ilə gəlmişəm. Münaqişə qurtaran kimi yenə də gedib ali təhsilimi başa vuracağam və sizin arzularınızı doğruldacağam. Mən onsuz da kiçik yaşlarımdan hərbçi olmaq arzusunda olmuşam. Mən sizi – ata və anamı çox sevdiyimdən onların arzuladığı sənətin dalınca getdim. Mən həm də vətənimin oğluyam.

Belə inadkarlığın qarşısında deməyə söz tapa bilməyən ata, ana dinmədilər.

Rəmzi həmişəki kimi onalır qucaqlayıb öpdü. Sonra da onların könlünü aldı. Üzlərində təbəssüm hiss etdikdən sonra birdən dedi:

- Ay ana, bayaqdan yadımdan çıxmışdı. Birdən yadıma düşdü. Mən axırıncı – V kursda oxuyuram. Bir ilə nə var ki. Qoy hələ onların cavabını layiqincə verək. Özüm gördüm ki, vəziyyət sakitləşib, daha düşmənlərimizin səsi çıxmır, onda ali təhsilimin bir ilini də oxuyub, başa vuracağam. Məndən özünüz bilirsiniz ki, yalan söz eşitməmisiniz. Bir də ay ana, kaş bizim batalyona gəlib orada necə oğlanların vətən müdafiəsinə qalxdığını görəydiniz. Mən onların yanında heç bir kiməm. Elə qeyrətli oğlanlar var ki, Laçının öz adına layiq – Laçın oğlanlar.

Yenə də anasını öpdü. Ay ana, başına dönüm, mən səninlə qürur duyuram ki, mənim belə anam var. Sən həm ürəklisən, həm də kişi qeyrətlisən. Oradakı oğlanlar hamısı sənin balalarındır. Bizi unutma. Hərdən-birdən ərzaq yığ, özüm gəlib aparacağam.

Anam dilləndi:

- Rəmzi, mən oğlanlarıma ad qoyanda birinci onların vətənpərvər, qeyrətli eloğlu olmalarını arzu etmişəm. Əlbəttə, yurdumuzu siz qorumalısınız. Ancaq, oğul, mən anayam. Birdən başına bir iş gələr, onda atanla mən nə edərik?

- Mənə heç nə olmaz ana! Olsa da eyib etməz. Məndən sonra o qədər oğullar var ki, sayı-hesabı yox. Hamısı da qoçaq və igid. Sən bizim hamımıza dua et ki, vətənimizi, torpağımızı qoruya bilək! – dedi və evdən çıxdı.

1989-cu ildə artıq özünümüdafiə batalyonu yaranmışdı. Rəmzi bu batalyonun döyüşçüsü kimi fəallıq göstərirdi. Əyninə geyindiyi hərbi forma ona yaraşırdı. Elə bil ki, çoxdan arzuladığı «hərbçi olmaq istəyi» onu vətənin müdafiəsi üçün reallaşdırmışdı. O, hərbçi geyimində Laçın ilə Ermənistan sərhəddində olan postlardan hərdənbir evə gələr, gedəndə isə özü ilə gücü çatacağı qədər ərzaq aparardı.

Özünə də, dyöüşçü yoldaşlarına da çox güvənirdi. Elə hiss edirdi ki, ayaqlarını qoyduğu vətən torpağına, belə cəsur oğulları olan vətən torpağına heç kim cürət edib girə bilməz. Bəs, onda biz nə edərik? Özü-özünə çoxlu suallar verir, verdiyi suallara da nikbin cavablar axdarırdı.

«Bizi kimi oğulları olan yurduma heç kimin gücü çatmaz» deyirdi.

- Bəs vətənin suyunu içəsən, çörəyini yeyəsən, sonra isə başını götürüb hara sakitlikdir ora qaçasan? Heç bu kişilikdən deyil. Mən özümdən də çox qeyrətli oğlanlara qüvənirəm. Bu yolda, vətəni qorumaq yolunda ölü var, döndü yox. Bir də bir şey var ki, bizi qoyalar, onlar buralara bir addım atmamış, biz onları düz İrəvana qədər qovaq. Onda onların ağılları başlarına gələr. Başqasının torpağına göz dikmək necə olar, bilərlər.

Postda oğlanların çoxu uzanıb, qalanları isə ayaq üstə söhbət edirdilər. Birdən bir oğlan dedi:

- Doğrudan da çətindir. Kaş adam avtomatı bir əllə ataydı. Ancaq atmaq olmaz.

Hər yerdən suallar verdilər:

- Niyə də atmaq olmaz?

O dedi, bu dedi, biz bir əllə avtomatın darağını boşaldarıq. Yazıq oğlan çıxılmaz vəziyyətə düşdü, dedi:

- Ay qardaşlar, mən elə demirəm. Mən demək istəyirəm ki, bir əllə avtomatdan atəş açasan, ancaq əl-qol titrəməyə. Deyin görüm kim bunu bacarar?

Hamı bir-birinin üzünə baxdı. Heç kim dillənmək istəmədi.

Birdən Rəmzi ayağa durdu:

- Mən tək əllə atəş açaram. Nə əlim titrəyər, nə də qolum.

Oğlan irəli gəldi. Avtomatı Rəmziyə uzadıb eddi:

- buyur canım! Uzaqda deyil ki, işi görə bilməyək. Sən burada, avtomat da burada.

Rəmzi dedi:

- Mənim silahıma nə olub ki, sənin silahınla atəş açım. Bax, bu mənim avtomatım, bu onun dolu darağı. Ancaq mənim şərtim var. Əgər iş doğru olsa, yəni mən güllələri boşaldanda əlim-qolum titrəməsə, sən onda mənə nə verəcəksən?

Oğlan bir az susdu. Hamı dilləndi:

- De görək nə verərsən?

Oğlan dedi:

- Mən bir qoyun verərəm.

Gülüşdülər.

- Ay yazıq, sənin qoyunun var ki, verəsən?

Oğlan dedi:

- Niyə yoxdu, atamın çoxlu qoyun-quzusu var.

Onda Rəmzi dilləndi:

- Bir yox, iki qoyun verəssən.

Oğlan başının işarəsiylə «oldu» dedi.

Birdən-birə Rəmzinin özündə belə cürət tapmasına hamı məətəl qaldı.

- Bəlkə heç mərcə gəlməyəsiniz. Çünki bu çətin bir işdir – dedilər.

Amma dəlidolu Rəmzi sözündən dönmədi.

- Kişi gərək tüpürdüyünü yalamasın. Söz ağzımızdan çxıb gərək yerinə də yetirək.

Uzananlar da, ayaq üstə duranlar da düz Rəmzinin yanına gəldilər.

Rəmzinin ürəyi şiddətlə döyünməyə başladı. Fikirləşdi, birdən əlim, ya qolum titrədi? Onda necə olacaq. Ancaq içərisindən bir səs gəldi: «Rəmzi, axı sən dəmir kimi möhkəmsən, özün də möhkəm ol, sən bunu bacaracaqsan!»

Avtomatın darağı havaya boşaldı. Nə əl titrədi, nə qol tərpəndi. Hamı bir ağızdan:

- Əhsən sənə, ay eloğlumuz – dedilər. Qoy bu qolların heç vaxt gücdən-qüvvədən düşməsin – söylədilər.

Oğlan irəli yeridi. Rəmzini qucaqlayıb dedi:

- Mən təsəvvürümə hələ də gətirə bilmirəm ki, belə bir iş olar.Sən lap nağıllardakı pəhlivanlara bənzədin. Mən qoyunları iki gündən sonra şəhərə, sizin evə göndərərəm.

Rəmzi razılaşmadı. Qoyunlar bura gələcək dedi. Elə də oldu. Mərcdə udulan qoyunlar onların bir-neçə günlük yeməyi oldu. Onda Rəmzi özündə rahatlıq duydu.

Kaş əlimdə imkan olaydı ki, bütün əsgərlərin yeməyini özüm verəydim – deyə fikirləşdi.

1992-ci ilin qışı idi. Havada çox sərt şaxta duyulurdu Bu soyuğa, bu şaxtaya baxmayaraq yurdumun mərd oğulları düşmən qarşısında çox qeyrətlə dayanırdılar. Doğma vətənini canından çox sevən, yurduna, elinə möhkəm tellərlə bağlanan Rəmzi hər an belə vətən yolunda ölümə getməyə hazır idi. Təki onun sevdiyi, əziz tutduğu müqəddəs yer hesab etdiyi Laçınına heç nə olmasın.

Şəfalı dağlarda qalalar qurduq,
Sinəndə güc alıb vüqarla durduq,
Hanı Soltan bəyim? Dar gündər sorduq,
Baharım qış gəldi, üşüdü canım,
Niyə darda qaldı, niyə Laçınım?

Xəyallar aləmində gözləri yol çəkirdi. Bir az fikrini dağıtmaq üçün Rəmzi çölə çıxdı. Həm vəziyyəti yoxlayım, həm də bir az gəzim deyə fikirləşdi.

Hər yan ağappaq idi. Şaxta yerdəki qarı dondurmuşdu. Ayaq atdıqca qar yavaş-yavaş xışıldayır, elə bil ki, torpağı daha da möhkəmləndirirdi. Bir az aralanmışdı ki, bir də gördü ki, ondan aralıda bir dovşan var. Dovşan elə bil yolu azmışdı. O yana, bu yana çevrikirdi. Elə bildi ki, dovşan tələyə düşüb, qaça bilmir. İstədi ona yaxınlaşıb tutsun. Ancaq dovşan qaçdı. Nədənsə möhkəm qaça bilmirdi. Ya şaxta ayaqlaırın dondurmuşdu, ya da acından bərk qaça bilmirdi. O, çiynindəki avtomatı əlinə aldı. İstədi dovşanı vursun. Amma birdən yadına düşdü ki, heç vaxt özbaşına güllə atmaq olmaz. Həm postakılar elə bilərlə ki, hücum var, həm də qarşı tərəf vəziyyəti çəntişdirər. Bəs nə etsin? Bu dovşanı necə tutum. Ya Allah deyib dovşanın dalınca düşdü. Bir az yaxınlaşan kimi dovşan da götürüldü. Bu minval ilə nə qədər qaçdı, hara qaçdı, özü də bilmədi. Dolayı yollarla gedib düz sərhəddən Ermənistan tərəfdə yerləşən Dığ kəndinə çatdı. Bir də nə görsə yaxşıdır. Artıq kəndin kənarındakı bir evin böyründədir. Bu nə işdir mən düşdüm – dedi. Yəqin məni bura şeytan gətirib. İndi bəs mən nə edim? Ancaq gec idi. Dovşan da yorulmuşdu. Onu tutub aparmalıyam. Vəssalam, axırım da bu.

Dovşan qaçıb həyətdəki ot tayasının altına girdi. Rəmzi baxdı. Heç kəs gözə dəymirdi. Ancaq evlərin üstündən sobanın tüstüsü çıxırdı. Deməli, heç kim yoxdur. Bu fürsəti əldən vermək olmaz, həyətə girdi. Dovşan gizləndiyi yerdən nəfəsi kəsilmiş dovşanı tutdu. İstəyirdi ki, həyətdən çıxsın. Elə bu vaxt inəyinə ot aparan erməni ilə rastlaşdı. Erməni kişisi əvvəlcə heç nə başa düşmədi. Birdən gözləri Rəmzinin əynindəki hərbi formanın üstündəki Azərbaycan bayrağına sataşdı. Rəngi sapsarı saraldı. Qucağındakı ot yerə töküldü. Rəmzi bıçağa əl atdı. İstədi ki, onu öldürsün. Amma, yazığı gəldi: «Bu yazıq insanın nə günahı var» dedi. Bizim işimiz ancaq torpağımıza göz dikən quldurlarladı Rəmzi dedi:

- Qorxma, mənim səninlə heç bir işim yoxdur, səni öldürmərəm. Ancaq o quldurlara söylə ki, onların başını bu dovşanın başı kimi üzəcəyəm.

Erməni başa düşdü-düşmədi bilmədi.

Yeyin addımlarla oradan uzaqlaşdı. Posta çatanda artıq hava qaranlıqlaşmağa başlayırdı .Bir də gördü ki, yoldaşları təlaş içərisində onu gəzirlər. Onun əlində dovşanı görəndə işin nə yerdə olduğunu bildilər.

Yaxın dostu dedi:

- Ay qardaş, biz də elə bildik ki, səni ya öldürüblər, ya da girov aparıblar. Bir az da gec gəlsən dalınca sərhəddə qədər gələcəkdik.

Rəmzi güldü:

- Rəmzi ölər, amma düşmənə təslim omlaz. Siz məni bir o qədər də aciz bilməyin.

Sonra isə əhvalatı olduğu kimi onlara danışdı. Onu qınayanlar oldu. Amma, Rəmzi öz sözünü dedi:

- Bilirsiniz, o artıq ayaq üstə ölmüşdü. Heç onu öldürməyə dəyməzdi. Bir də ki, o bizə neyləyib? Mənim onunla heç bir işim yoxdur. Mənim işim, mənim yurdumda gözü olan quldurlarladı.

Amma ermənini diri tutub buraya gətirmədiyinə görə çox peşiman olmuşdu. Ondan çox şey öyrənmək olardı.

Günlər keçirdi. Amma, hər gün xəbərlər gəlirdi. Belə xəbərlər onlar üçün elə-belə xəbər idi. Ancaq onlar yaxşı bilmirdilər ki, bu «elə belə xəbərlər»in sonu nə ilə bitəcəkdi. Arxada quduzların hansı planları var. Onlar bəlkə də strateji cəhətdən dağlıq ərazisi olan Laçına qarlı-şaxtalı havada yiyələnmək istəmirdilər. Deyirdilər ki, «qoyun bir havalar açınsın, bahar gəlsin, dağlar öz yaşıl donunu geysin» biz onda gözəl Laçına sahib olarıq.

Bizim igid oğlanlar da əksinə düşünür, «qoyun bir yaz gəlsin, görün sizin başınıza nə gətirərik» fikirləşirdilər.

O qış elə bil ki, Qarabağın acınacaqlı günlərini qabaqcadan xəbər verirdi. O sərt qış öz sərt sifətini quduzlara göstərib sanki demək istəyirdi ki, bu ellərin, bu yurdların yiyələri var, bizim şaxtamıza da, soyuğumuza da ancaq hər fəslin qədrini bilən ərənlərimiz və kişi qeyrətli qadınlarımız var.

Amma, sən demə o qış başıbəlalı, faciəli, ölmlü bir Xocalımız da var. Quduzlar başlarının üstünü alan Xocalımız!

Artıq fevralın sonları idi. Mühasirədə qalan Xocalının soyqırımı haqqında düzgün xəbərlər vermirdilər. Məlumatı olanlar isə belə söyləyirdilər ki, bir az insan öldürüblər, bir az da girov aparıblar. Düzgün necə olub, hələlik heç kim bilmirdi.

Xəyallar aləmində gözü yol çəkən Rəmzi Xocalıda olan dəhşətləri sanki öz gözləri ilə görmüşdü. Bir-birindən acı gələn xəbərlər isə onun vətən eşqilə yanan qəlbini daha da alovlandırırdı. Xocalıda yaşayan dayısı oğlunun ermənilər tərəfindən girov götürülməsi, o biri qohumlarının isə işgəncə ilə öldürülməsi onu dəhşətə gətirirdi. Bilmirdi ki, nə etsin.

Bəs biz nə edək? Deməli, azğınlaşmış ermənilər bu faciəni Laçının da başına gətirə bilərlər – deyə düşünürdü.

Beyninə yığılmış yığın-yığın fikirlər içərisində özünə yer tapa bilmirdi Günlər necə keçirdisə, onu da hiss etmirdi. «Biz necə oğul ola bilərik ki, bizim vətənimizi qorxaq ermənilər zəbt edə bilsinlər» deyə fikirləşirdi.

Birdən yadına uşaqlıqda olmuş bir hadisə düşdü. Bilmirəm onda Rəmzinin neçə yaşı olardı. Amma bu hadisə tez-tez xatırlanır. Evdə sözbətlər əsasında yada salınırdı. Qara göldən, yaylaqdan Laçına qayıdırdıq. Yol üsüt Gorusun kəndlərindən birindən keçirdik. Anam sürücüyə söylədi ki, mağazanın yanında saxla bir az ərzaq alaq.

Hamımız maşından düşdük. Qayıdanda sürücü atama dedi:

- bəs maşının yan güzgüsünü açıblar.

Atam dedi ki, eybi yoxdur, mən şəhərə çatanda təzəsini alıb verərəm, onun yerinə bağlayarsan.

Amma, anam qoymadı Dedi ki, əgər güzgünü tapmasam buradan gedən deyiləm. Axı yazmışdım. Anam erməni dilini yaxşı bildiyi üçün mağazanın qabağında olanlara üz tutub dedi:

- Əgər güzgünü bu saat bura gətirməsəniz sizin Laçından keçən bütün maşınlarınızın təkərlərini çıxartdıracağam. Sizə 15 dəqiqə vaxt verirəm, özünüz bilin!

Atamın təkidlərinə baxmayaraq inad edən anam öz sözündən dönmədi.

- Qeyrətimə sığışdıra bilmərəm ki, bizim maşının güzgüsünü açalar, mən də buradan onlardan qorxaraq çıxıb gedəm.

On dəqiqə keçməmiş bir qoca erməni qadın beli əyilə-əyilə gətirib güzgünü verdi. Anam soruşdu:

- Axı bu güzgünü sən açmamışdın ki, sən də gətirib verirsən.

Qoca dedi:

- Bunu bir cavan oğlan açmışdı. Amma qorxusundan bilmirəm, hara qaçdı. Bizi bağışlayın. Bir qələtdi eyləyib.

Hiyləgər ermənilər bərk ayaqda qoca bir qadını irəli veridlər. Bu hiylənin qarşısında onlara nə deyəsən?

Bəli, qorxan və hiyləgər ermənilər indii necə oldu ki, kimlər onlara himayədarlıq etdi ki, bizim torpaqlarımıza yiyələnmək istəyirlər.

Özü pərmüjdə, qaşları çatılmış, uşaqlıqda olduğu kimi uzun müddət fikirləşdi-fikirləşdi, ancaq bu suallara cavab tapa bilmədi. Elə bu vaxt Mübariz əlini Rəmzinin çiyninə qoydu:

- Rəmzi, bayaqdan baxıram, elə oturub burada hey fikirləşirsən. «Yüz fikir bir borcu ödəməz» deyiblər. Ayağa dur, dostum! Hələ biz ölməmişik ki, sən bu qədər qəm-qüssə çəkəsən. İnan, fikrimdə tutmuşam, icazə verdilər, vermədilər bilmirəm. Yaz açlvan kimi onların yurdlarını tari-mar edəcəyəm. Evlərini başlarına uçurdacağam. Nə qədər Xocalıda qanlar ediblər, nə qədər qızlarımıza, gəlinlərimizə işgəncələr veriblər, on qat onların əvəzini çıxacağam. Hələ yəqin onlar unudublar ki, biz Soltan bəyin, Qaçaq Nəbinin, qeyrətli kişilərin davamçılarıyıq. Lazım gələrsə onların cavablarını verəcəyik.

Rəmzi ayağa durdu. «Cin» ləqəbi qazanmış Mübarizin dediyi sözləri sanki öz ürəyindən gələn sözlər kimi qəbul etdi.

Belə qeyrətli oğulları olan vətən heç darda qalarmı?

Rəmzi şaxtalı qış gecələrində buz bağlamış qarın üstündə gəzər, sayrışan ulduzlara baxar-baxar, elə hey düşünərdi. Bu düşüncələr, xəyallar onu hara aparırdı? Uşaqlıq çağları yadına düşdü, qayğısız və qəmsiz uşaqlıq çağları. Və birdən evləri üçün, ana və atası üçün, qardaş və bacıları üçün elə darıxdı ki, sanki neçə illərdi görmürdü. Və birdən ona elə gəldi ki, düşmənlər yurdumuzu talan edib, evləri dağıdıblar, Rəmzinin dünyalar qədər sevdiyi ata-anasını öldürüblər. Onda dəhşətə gəldi. Yumruqlarını düyünlədi. «Heç vaxğt! Heç vaxt! Mən nə yurdumun talan edilməsinə, nə də ata və anamın, əzizlərimin yoxluğuna dözə bilmərəm» - dedi.

Onun belə möhkəm səslə danışdığını eşidən döyüş yoldaşları tez onun yanına gəldilər.

Uzun qış gecələrində yuxusu ərşə çəkilmişdi Rəmzinin. Bu qədər fikirləşməkdənsə, mütləq bir iş görmək lazımdır. Mütləq onalra, xəbis iblislərə elə bir dərs vermək lazımdır ki, özlərinə yığılsınlar. Bu qədər də sakitliyin axırı nə ilə qurtarar? Onlar planlı şəkildə işlərini qurur, bizimkilər isə nəyisə gözləyirdilər.

Yuxarıardan gələn xəbərlər o qədər də ürəkaçan deyildi. Bir amal uğrunda döyüşən döyüşçülər hər gün hər hansı hadisə ilə doğma yurda olan məhəbbətdən irəli gələn ölüm onları əsla qorxutmurdu. Müqəddəs vətən yolunda çəkdikləri əzab və əziyyət də onları yormurdu.

Belə də olmalı idi…

Rusiya və Ermənistanın uzun, qara, iyrəng qolları Azərbaycana – Qarabağa uzanmışdı. Bu uzun qollar kəsilməli idi. Vətən oğullarının isə bu iyrəng qolları kəsməyə nə iti qılıncları, nə də köməyi yox idi. Daxildə hakimiyyət çəkişmələri vəziyyəti daha da çətinləşdirirdi. Qonşu dövlətlərin çoxu isə Azərbaycanı istəməyib və istəməyəcək də. Təkcə müstəqillik qazanmış Azərbaycan özü sıx birləşməli və düşmənə qarşı layiqli cavab verməli idi.

Belə çətin gündə Əfqanıstan müharibəsi veteranı, vətənimin qeyrətli oğlu İsabalı Əsgərov irəli duraraq, məsuliyyəti öz üzərinə götürdü. Hələ, 1988-ci ildən ermənilərin torpaqlarımıza təcavüzü başlayanda ilk olaraq özünümüdafiə batalyonu yaranmışdı. Bu batalyon sonralar polk oldu. Həmin batalyonun tərkibində 4-cü əlahiddə tağımın komandir isə İsabalı Əsgərov idi. İsabalı Əsgərovun göstərdiyi igidliklərin və şücaətin sayı hesabı yox idi.

O, vaxtilə Əfqanıstanda döyüşmüşdü. Ona görə də onun hərbi təcrübəsi döyüş vaxtı çox döyüşçülərin köməyinə gəlirdi.

Laçın polku istər Ermənistan tərəfdən, istərsə də Dağlıq Qarabağ istiqamətindən rayonu müdafiə edirdi.

Ən cəsur və igid oğlanları postlarda yerləşdirirdilər ki, gediş-gəlişə nəzarət daha möhkəm olsun. Polkun döyüşçüsü olan Rəmzi və Mübariz tez-tez mühüm tapşırıqlara göndərilir və həmişə də tapşırıqdan üzüağ qayıdırdılar.

İ.Əsgərovun söylədiklərindən: Rəmzi Əsgərovun vətənimizin müdafiəsində göstərdiyi qəhrəmanlıqlar çox olub. Rəmzi həm qeyrətli, həm də dəlidolu oğlan idi. Mənim heç yadımdan çıxmaz. Xəbər gəldi ki, bizim 31-ci postu ermənilər alıb. Vəziyyəti bilib oraya özümlə bərabər Mübarizi və Rəmzini də apardım. Onların və döyüş yoldaşlarımın təkidinə baxmayaraq birbaşa hücum etmədik. Ratsiya vasitəsilə erməniəlrin başlarını qatmaq üçün yüksəklikdən onlara top  atəşi açmaq lazım gəlirdi. Belə də oldu. Yüksəklikdən atılan top Dığ kəndində düşmənin silah anbarına düşərək güclü yanğın və partlayış törətdi. Bir anlığa özünü itirən erməni yaraqlıları döyüşü saxladılar. Biz, bu andan istifadə edərək səngərlərə girdik. Mübariz və Rəmzi də burada qəhrəmanlıqlar göstərdilər. Onlar yaralıları aparır, həm də döyüşürdülər. Artıq səngəri bərpa edib mövqeyimizi möhkəmləndirdik. Ancaq bəzi başıpozuq rütbəlilərin xəyanətkarcasına öz mövqelərini tərk edib, Bakıya üz tutmaları nəticəsində gərgin vəziyyət yarandı.

Rəmzi həddən artıq qeyrətli və vətənpərvər bir oğlan idi. Onun döyüşlərdə necə qəhrəmanlıqlar göstərməyi indi də gözümün qarşısındadır. 31-ci postda gedən

döyüşlərdə ermənilərin öldürdüyü bizim bir əsgərimizin yerinə Rəmzi bəlkə də üç-dörd erməni qulduru öldürürdü. Mənə elə gəlir ki, belə qəhrəman oğullar dünyaya tək-tək gəlir.

Rəmzi dünyalar qədər sevdiyi yurdundan ötəri ölümün düz gözünün içinə baxırdı. O, döyüşlərdə qartal kimi şığıyıb döyüşürdü.

Onun bir xasiyyəti də vardır ki, o da onun döyüş bölgəsində tək öz vəzifəsini yerinə yetirməklə bərabər, başqa işlərə də can atması idi. Bu da onun vətəncanlı olmasından irəli gəlirdi.

Bir döyüş yoladaşı kimi, bir vətənimin oğlu kimi onu demək istəyirəm ki, Rəmzinin qəhrəmanlıqlarını saymaqla qurtarmaq olmaz. Elə qəhrəmanlıqlar ki, bunu tək-tək oğlanlar döyüşdə göstərə bilərlər. Mən Rəmzini həmişə igid və cəsarətli bir döyüşçü kimi xatırlayıram.

Şuşanın işğalından sonra artıq Laçın təklənir və mühasirə vəziyyətinə düşürdü. Laçınlılardan ibarət 300 döyüşçü Laçın əhalisinin əsir düşməməsi üçün əllərindən gələni edirdilər.

Rəmzi də onlardan biri idi. Bəlkə də Rəmzi kimi, Mübariz kimi oğlanlarımızın ümidinə qalsaydı, Laçınımıza heç nə olmazdı.

Bu döyüşlərdə, dinc əhalinin çıxarılmasında, döyüşün ikinci mərhələsində göstərdiyi igidliklə əsla İsabalı Əsgərovu qorxutmurdu. O da vətənini, elini, yurdunu dərin bir məhəbbətlə sevən eloğludur. Doğma diyarına ən möhkəm tellərlə bağlanan İsabalı müəllim deyir: «Mən, Əfqanıstan müharibəsi döyüşçüsü kimi, həm də Qarabağ müharibəsi veteranı kimi deyirəm ki, əgər Ali Baş Komandan günü bu gün əmr etsə ən birinci torpaqlarımızın işğaldan azad edilməsində mən gedərəm. Çünki, hər gün, hər saat, hər dəqiqə o toraqlar məni, bizi çağırır.

Bir də mən o ümidlə yaşayıram ki, bir gün gələcək, mütləq ana vətənimiz, Qarabağımız işğaldan azad olunacaq.»

Dağların sərt qışı Rəmzini bir az da sərtləşdirmişdi. Dağların başına baxdı. Oradan çiskin tökülürdü. O, çiskin dağların başına yox, Rəmzinin ürəyinə tökülürdü. Bu ya müharibədən idi, ya da hələ düşmənlərin ayağı dəymədiyi yurdumun acı taleyindən irəli gəlirdi.

Qışın üzücü uzun gecələrində vətənin xilas etmək yollarından söhbətlər uzanar, amma «yuxarılar icazə vermədikləri» üçün bir ciddi iş görə bilmirdilər.

Çox da uzaq olmayan yerdən kim isə oxuyurdu:

Çəmənli, çiçəkli güllü bağ idim,
Dumanlı, çiskinli bir dağ olmuşam.
Üşüyür yanımdan gəlib keçənim,
Tutqun bir səhərəm, soyuq bir axşam.

Yerə qırov düşür, saca ağ düşür,
Gündə bir budaqdan on yarpaq düşür.

Muğamat üstə oxunan bu yanıqlı səsdən Rəmzinin iri, qara gözləri doldu. Qəhərləndi, amma, qüruru tez ona üstün gəldi. Olan hadisələri unuda bilmiro, vətəninin belə günə düşməsi ona ağır gəlirdi.

Bir də ki, Bakıda institut yoldaşlarına və dostlarına söz vermişdi ki, vətənimin üzü güləndə onda Bakıya qayıdacağam.

Artıq mart ayı girmişdi. Bayram ayı olan mart ayı. Bzim tərəflərdə ilaxır çərşənbəni, novruz bayramını çox təntənə ilə qeyd edirdilər. Bu çərşənbə də tonqallar elə çatılırdı ki, alovun hündürlüyü ərşə qalxardı.

Bu il isə… Vəziyyətə görə heç kim ürək edib bayram adını çəkmək istəmirdi. Mərd Laçınlıların əl-qolunu Xocalı hadisələri elə bağlamışdı ki, insanlar yas içində idilər.

Həmişə nikbin olan Laçınlıları bədbin bir ruh bürümüşdü ki, nə bayram, nə toy, heç nə yadlarına düşmürdü.

Düşmənlərlə üzbəüz olan laçın şəhəri kim deyə bilərdi ki, Xocalının gününə salına bilməz?

Arıtq qar əriyir, havadan xoş bir bahar ətri duyulurdu. Bu bahar ətri də vətən, yurd eşqilə alışıb-yanan oğulların ürəklərini isidə bilmirdi.

Keçən əsrin əvvəllərində də ermənilər torpaqlarımıza – vətənimizə göz dikiblər. O vaxtlar da onların – yaltaq ermənilərin arxasında çar Rusiyası dayanmış, onlara hər cür yardım etmişdilər. O vaxtlar da bizim Azərbaycanlılara bir min əziyyət verib, hətta körpə uşaqlara, hamilə qadınlara belə rəhm etməyiblər. Ancaq Türk qardaşlarımızın-osmanlıların köməyindən sonra bir az vəziyyət dəyişir. Onu da qeyd edim ki, böyük Azərbaycanın bir hissəsi olan İrəvan xanlığını da elə o vaxtlar itirdik. Zaman keçdikcə müxtəlif siyasi hadisələrin qurbanına çevrilmiş Azərbaycan həmişə qonşu dövlətlər tərəfindən belə təqiblərə məruz qalmışlar. Zaman-zaman öz dərə-baba yurdlarından köçürülmüş Azərbaycanlılar müxtəlif bölgələrə üz tutmuşdular.

O vaxtlar İrəvanı itirdik. İndi isə onlar gözəl Qarabağa göz dikiblər. Deməli, vaxt gəlib. Onların Qarabağa dikilər gözlərini çıxarmaq lazımdır.

Amma, nə fayda ki, artıq siyasi oyunlar başlamışdı. SSRİ dağılmış, kommunist ideologiyası məhv olmuş, onun yerinə yenə də Azərbaycana göz verib, işıq verməyən bir Rusiya gəlmişdi.

Rusiya da öz əməllərini yerinə yetirmək üçün həmişə ikiüzlü, riakar, yaltaq və yalançı erməniləri əllərində vuran bir balta kimi alət etmişdilər. Bu gün də o alət işə düşmüşdü. Yenicə azadlıq qazanmış Azərbaycanı, erməni-balta ilə vurmaq, yenə də Azərbaycana yiyələnmək, torpaqlarımızın bir hissəsini isə ermənilərə pay vermək istəyində olan Rusiyanın bir siyasi oyunu idi bu oyun.

Vaxtilə Əli bəy Hüseynzadənin yazdığı kimi. Əli bəy (Əli Turan) yazırdı ki, ermənilər Avropanın bir ucundan o biri ucuna, bəlkə də Amerikadan Avstraliyaya qədər o yolda fəryadlar edir, daha bizim kimi aciz qalmırlar.

Yəni biz çox aciz millətik? Bu suala kim cavab verə bilər ki? Gərək Azərbaycanı da bu vəziyyətdən çıxara bilən müdrik və qəhrəman bir dövlət başçısı lazımdır ki, millətimiz də bu günə qalmasın.

Digər tərəfi isə ölkə daxilində olan çəkişmələr və hakimiyyət uğrunda gedən mübarizənin, bu çəkişmənin kimin xeyrinə həll olunacağı isə heç kimə məlum deyildi. Bircə o məlum idi ki, aciz insanların qara günləri başlamışdı. Həm də vətənimizin qara günləri…

Həddən artıq qürurlu olan Rəmzini elə-obaya bağlayan vətən sevgisi, vətən məhəbbəti idi. Uca dağları, soyuq bulaqları, şəfalı yaylaqları olan Laçın dağlarını

özünün canı, üzəryi bilirdi. Özündə olan qüvvəti, özündə olan mərdliyi, elinə məhəbbətini dağların ona verdiyi pay kimi qiymətləndirirdi.

Hər kəsə baş əymədim,
Nakəsi bəyənmədim,
Namərdə əyilmədim,
Dost yolunda, çətinliyi, mərdliyi,
Dağlar mənə pay verib.

Hər küləyə əsmərəm,
Haram çörək kəsmərəm,
Dinməyə tələsmərəm,
Söz deyəndə ötərəm, ötkəmliyi,
Dağlar mənə pay verib.

İnsanlığa hörmətim,
Elimə mhəəbbətim,
Düşmənlərə nifrətim,
Qaya kiim möhkəmliyi, sərtliyi,
Dağlar mənə pay verib.

Sözlü-söhbətli Rəmzi çox dəyişilmişdi. Sanki qaradinməz olmuşdu. Çox arıqlamışdı. Üzünü saqqal basmışdı. Tək Rəmzi yox, döyüşçülərin çoxu belə idi. Anamgil birdən onu danlayırdılar:

- Ay bala, elnən gələn qara gün toy-bayramdır. Özünə fikir ver! Heç olmasa üzünü qırx Axı belə olmaz!

- Mən sizə qabaqcadan da dmişəm. Nə vaxt yurdumun üzü gülər, nə vaxt Xocalının qanını alarıq, onda mən yasdan çıxaram. Ay ana, onlar xırda işlərdir. Niyə mənə görə bu qədər üzülürsən. Belə vziyyətdə olan bir mən deyiləm ki. Məndən də yaxşı oğlanlar heç evlərinin üzünü də görmürlər. Məndən narahat və nigaran qalmayın.

Vəziyyət gərginləşmişdi. Laçında hər kəs başını itirmişdi. Heç kim bilmirdi ki, sabah nə olacaq. Və bu olacaqlar içində kimlərin başına nə gələcəkdi. Bu günü sabah edən və sabahı o biri gün edənlər isə Xocalının başına gətirilən dəhşətlərdən qorxurdu. Qorxurdular ki, Xocalının başına gətirilən zülmlər, rüsvayçılıqlar bizim də başımıza gətirilə bilər. Deməк olardı ki, çox adamlar evdən arvad və qızlarını aparıb ayrı rayonlarda yaşayan qohum və tanış evlərinə qoyurdular ki, sabahı bilmək olmaz. Heç olmasa arvad, qız, gəlin əsir düşməsin.

Bir də insanları qorxudan o idi ki, əllərində heç bir silah yox idi. Çünki, yuxarıdan gösəriş gəlmiş, bütün ov tüfəngləri yığılmışdı. Laçın camatı tamamilə əliyalın qalmışdı. Heç olmasa düşmən qapının ağzını kəsəndə özünümüdafiə üçün adi bir ov tüfəngi də yox idi. Bax, beləcə bütün Laçınlıları əli-qolu bağlı vəziyyətə qoydular.

İnsanların ümid yeri döyüşən vətən oğulları idi. Bəlkə onlar ellərini, insanlarını qoruyalar, düşmənin hücumundan müdafiə edələr.

Bir çıxış yolu qalmışdı. Bu yol da Laçın Qubadlı yolu idi. Qürurlu və qeyrətli olan Laçınlılar nəyin gücünə olur-olsun evlərindən, yurdlarından çıxıb getmək istəmirdilər. Vətən, yurd axı çox şirin olur…

Bunu ancaq qürbətdə yaşayanlar daha yaxşı bilir. Bunu ancaq vtəən həsrətini çəkənlər bilir.

Güllü, çiçəkli may ayı gəlmişdi. Laçına elə bil ki, çiçəklər açmaq isəmirdi. Ona görə açmaq istəmirdi ki, yurdumuzun elli-obalı axırıncı mayı idi.

Bakıdan gələn hərbçilər mayın 8-də Şuşanın işğalından sonra çxııb gedirdilər.

Ləyaqətli və qeyrətli Laçın döyüşçüləri hər vəchlə axıra qədər döyüşməli və yurdlarını xilas etməlidirlər.

Laçın təklənir, heç bir hərbi kömək gəlmir, hakimiyyət dəyişdiyi üçün Bakıdan əmr almış hərbçilər paytaxta üz tuturdular. Laçınlılardan ibarət olan 300 döyüşçü ilk əvvəl dinc əhalini çıxartmalı idi.

Mayın 15-də ermənilər artıq laçına girirdilər. Üç gün ərzində demək olardı ki, dinc əhalinin çoxu çıxıb getmişdi. Qalanlar döyüşçülər və kişilər idi.

Rəmzi köhnə poçt ərazisindəki postda idi. O, əhalinin çıxmasında fəal iştirak edirdi. Bir çox adamlar maşın olmadığı üçün çıxış yolu olan posta gəlirdi. Bir çox adamlar da artıq maşınlara heyvanlarını və yüklərini aparırdılar. Belə işlərə dözməyən Rəmzi əşya və heyvanları maşınlardan boşaltdırıb dinc əhalini həmin maşınlara yerləşdirirdi.

Şəhərin ətrafında qoyulan postlardakı döyüşçülər imkan vermirdilər ki, ermənilər şəhərə daxil ola. Hərbçilər, polislər və mülki vətəndaşlar çiyin-çiyinə düşmənə müqavimət göstərirdilər.

Mərkəzdəki yerlərdə ləyaqətlə dayanan topçularımız da Ermənistan tərəfdən düşmənin irəliləməsinə imkan vermirdi. Bütün bunlara baxmayaraq mayın 16-da Laçından çxış yolları bağlandı.

Amma, fədakar dyöüşçülər (Onlardan biri də Rəmzi idi) döyüş əməliyyatına başladılar. 5 km məsafəyə qədər düşməni geri oturtdular.

Rəmzinin birdən ailələri yadına düşdü. Hansı rayondansa əhaliyə kömək gələn avtobusa minib evlərinə getdi. Gördü ki, hamı evdədir. Səsləndi:

- Tez olun, yığışın maşina. On dəqiqə keçməmiş getməlisiniz.

- Ay bala, hara gedək? Necə gedək deyə ana dilləndi.

- Ana, əgər sizlərdən biriniz düşmənə girov düşsəniz onda mən gərək birinci sizləri öldürəm. Qorxmayın müvəqqəti olaraq əyin paltarlarınızı götürüb və bir neçə günlüyə buralardan uzaqlaşın. Hara getsəniz mən özüm sizi tapacağam.

Oğlunun inadkarlığını və xasiyyətini yaxşı bilən anam heç bir söz edmədən dolu olan 8 otaqlı evi və həyət-bacanı olduğu kimi qoyaraq evdən qızı və gəlini və nəvələri ilə çıxdılar. Xatırladım ki, həmin vaxt qardaşım Elxan və Fuad da döyüşdə idilər.

Mayın 18-də axşama yaxın Qayğı qəsəbəsindən Yuxarı Laçının yandığı görünürdü.

Rəmzi yerindəcə quruyub qalmışdı. İnana bilmirdi ki, laçından uzaq düşmüşük. İnana bilmirdi ki, onun vətəni artıq düşmənlərin əlindədir. Oturub bir daşın üstündə fikrə getmişdi. Laçın polku Cəbrayılda yerləşirdi. Plan da bu idi ki,

qüvvələrimizi yenidən səfərbərliyə alıb hücuma başlasınlar. Amma, yenə nədənsə yuxarılardan hücum əmri gəlmirdi.

Rəmzi bir daşın üstündə oturmuşdu. Başını əllərinin arasına alıb cox qəmgin-qəmgin hara isə baxırdı. Bəlkə də heç baxdığı yeri görmürdü elə bil ki, yuxuda idi. Kaş elə yuxu olaydı bu gördüklərim deyirdi. Amma, deyəsən yuxu deyildi bu bir həqiqqət idi ki, neçə gündü laçından ayrılmışıq. Nə düşünürdüsə ürəyinin dərinliklərindən bu düşüncələri çıxara bilmirdi. Bu ağır düşüncələr onun ürəyinə ağırlıq edir, ancaq qüruru isə bu ağırlığı saxlaya bilirdi.

Gözümdədi buz bulaqlar,
Ahımdadı od, ocaqlar,
Sənə güvəndiyim dağlar,
Sənə də qar yağdı demə.

Zirvələrin yolsuz izsiz,
Göz yaşlarım axar sizsiz...
O Gülüstan bildiyiniz
Bir viranə bağdı demə

Yoldaşlarından biri olan Həsən ona yaxınlaşdı..

-Deyəsən qardaşımın halı yaxşı deyil. Dur, bir az oyana-buyana gəzək, bəlkə bir az özümüzə gələk.

Rəmzi başını qaldırıb Həsənə baxdı. Onun da rəngi qapqara qaralmışdı. Elə bilirdi ki, vətəninin dar günü tək elə ona aiddir. Yox, bilirəm ki, tək mən yox elə döyüşçülərin hamısı-Laçınlıların hamısı indi cox pis vəziyyətə düşüblər.

-Yox qardaş, gəzməyim də, danışmaqım da, özüm də, sözüm də-hamısı laçında qaldı.

Bir az kövrəldi. Anasından ayrı düşmüş, yetimə dönmüş bir uşaq kimi boynunu bükdü.

-Rəmzi, komandirimiz dedi ki, yeni bir əməliyyat pılanı hazırlanır. Bu plan yaxşı baş tutsa cox ola on günə iyirmi günə yenə də laçındayıq.

-Nə olar təki sən deyən olsun. Amma dostum mənə elə gəlir ki, mənim üçün bu dərd ölümdən də betərdi. Mən Bakıdan Laçına gələndən sonra bir gün də olsun heç hara getməmişəm. Elə bilirdim ki, bir saat hara isə getsəm yurdum viran qalar. Bir də mənə ən çox ağır gələni isə Bakıdakı dotlarıma söz vermişdim ki,vətənimin, yurdumun üzü güləndə qayıdacağam. İndi isə dili gödək, suclu adam kimi heç kimin üzünə çıxmaq istəmirəm. Elə bilirəm ki, hamı mənə rişxənd ilə baxacaq, bunu da qeyrətimə sıxışdıra bilmirəm. Vallah qardaş bu çox ağırdır, çox,çox,çox....

Rəmzi ilk dəfə idi ki, lənət oxudu dünyaya. İlk dəfə idi ki, dünyaya gəldiyinə peşmançılıq hissi çəkirdi. Yaxşı ki, onun özü kimi dostları var idi. Onlara baxıb bəlkə də bir az təsəlli alırdı. Nə çörək yeyir, nə də ki, danışırdı. Bunu görə komandanlıq döyüşçülərə söylədi ki, ruhdan düşmək olmaz, biz yenidən əməliyyat hazırlayıb döyüşə girməliyik. Onun üçün də bizə mütləq silah və sursat lazımdır. Bir neçə gün dincəldikdən sonra əməliyyata başlamaq lazımdır.

Rəmzini çağırdılar:

- Sən Ağdamla Yevlax arasındakı Uzundərə deyilən yerədə hərbi bazaya gedib oradan silah və döyüş sursatı gətirməlisən! Amma, nə maşın bilinməlidi nə də gedib-gəldiyin vaxt.

Rəmzi özünün qrantamyotunu, avtomatını və hərbi çantasını götürdü. Bilirdi ki, bu bir çətin yoldur. Həm də bu işi hər adama etibar etmək olmazdı.

Bu bir əmr idi. Rəmzinin ümidi artdı. «Baş üstə» dedi. Fikirləşdi. Mütləq biz döyüşə-döyüşə Laçına girəcəyik. Yurdumuzu düşmənlərdən təmizləyəcəyik! Artıq mən buna inanıram. Bu yolda öldü var, döndü yox!

Neçə gün idi ki, yuxusuz və ac olan Rəmzi yolüstü İmişlidə atasının dostugildə olan ata və anasına baş çəkməyi düşünürdü. Elə də etdi. Silah və hərbi sursat üçün gətirdiyi maşınla İmişliyə döndü. Atam və anam Rəmzini görəndə ilk əvvəl gözlərinə inanmadılar.

- Nə yaxşı sağ-salamat gəldin ay bala! O qədər nigaran idik ki, səndən, bilmirdik ölmüsən ya qalmısan. Gözlərimizə inana bilmirik.

- Kaş mən öləydim ay ana! Kaş hamımız öləydik! Amma, yurdumuza, vətənimizə heç nə olmayaydı. Kaş laçınımıza murdar düşmən ayağı dəyməyəydi. Kaş…

Qəhər onu boğmuşdu. Danışa bilmirdi. İlk dəfə olaraq, hönkürə-hönkürə ağladı.

Ana, ata və yanındakılar hamısı ona qarışdı. Birdən Rəmzi ayağa durdu:

- Deməli, heç nəyiniz yoxdur? Heç olmasa evdən bir az şey götürməmisiniz?

Həmişə vəzifələrdə işləyən, hörmət-izzət sahibi olan varlı-hallı ailəsinin indi kiminsə həyətindəki qarajında olmasına az qaldı ki, ürəyi partlasın. Elə bil başına hava gəldi. Ağlaya-ağlaya:

- Ana, mən hərbi sursat və silah gətirməyə gedirəm. Ancaq bu bir sirdir. Bunu ancaq sənə deyirəm. Əməliyyat planı hazırdır. Biz yenidən hücuma keçəcəyik. Bizim əməliyyatımız yaxşı baş tutacaq.Mən bilirəm ki, sən qeyrətli və mərdsən. Bir az da səbr et. Mütləq axırı yaxşı olacaq.

-Belə də zülm olar ay balam. Bu nə işdi gəldi başımıza. Elə bil ki, neçə gündü atanla mən ölmüşük. Bizi yerdən götürən də yoxdu. Kaş biz də ölüb yerimizdə, yurdumuzda qalaydıq. Amma belə günləri görməyədik.

Onsuz da özü fikirli, dalğın, gözləri çuxura düşmüş, bəlkə də neçə gün idi ki, yerin altında, ya üstündə olduğunu bilməyən Rəmzi anasını heç belə görməmişdi. Ürəyi yerindən çıxırdı. Nə qədər özünü qürurlu, möhkəm tutsa da göz yaşları ona tabe olmurdu. Həmişə atasını, anasını her şeydən uca tutan, onların yolunda ölümə belə getməyə hazır olan Rəmziyə indi geniş dünya dar olmuşdu. Elə bil tutulmuşu. Nə deyəcəyini, nə edəcəyini bilmirdi. Anam ona yaxınlaşdı. Onun kölnünü, qəlbini alacaq söz axtardı ancaq tapa bilmədi. Birdən dilləndi:

-Balalarımın hərəsi bir yana didərgin düşüb, heç yerlərini də bilmirəm. amma allaha şükür ki, sağ və salamatsınız. Səndən cox nigaran idim sən də gəlib çıxdın. Özüm yemək hazırlamışam gətirərəm yeyərsən.

Nə yemək, nə çay heç Rəmzinin boğazından su da keçmirdi. Elə hey fikirləşir, fikirləşirdi.

Vəziyyəti belə görən atam ağlamaqdan qızarmış gözlərinin yaşını sildi və anama üzünü tutub dedi:

-Onsuz da Rəmzinin halı yaxşı deyil, sən də bir yandan onun ürəyini üzmə. Bəlkə də allahın izni ilə döyüşçülərimiz torpaqlarımızı geri qaytardılar mən buna inanıram. Çətinlik də olsa bu çox çəkməz. “Yaman günün ömrü az olar” deyiblər. Anam yemək çay gətirdi.Amma o heç nə yeyə bilmirdi. Rəmzinin ata və anasına ilk dəfə idi ki, yazığı gəldi. “Bir də anam gil məni allah bilir qismət olsa nə vaxt görərlər” deyə fikirləşdi. Heç olmasa onların qəlbinə dəyməyim nə desələr onu da edim.Birdən başını qaldırıb atamın üzünə baxdı. Elə bil ki az müddətdə atam çox qocalıb. Yemək boğazında qaldı. Bilirdi ki, atamın istəkli qardaşı İbiş və oğlu Nadir itkin düşüb. Bu ağır dərdə atam dözə bilmir.

Əlini yeməkdən çəkdi, gəlib atamın boynunu qucaqladı və hər ikisi ağlaşdılar. Anam da onlara qoşuldu. Nə qədər çətin və acınacaqlı günlər olsa da cəfakeş və mərd anam dilləndi.

-Bilirsən, balam sən də heç bizdən nə nigaran qal, nə də fikrimizi çək. Əgər sənə desəm ki, getmə bilirəm onsuz da gedəcəksən. Amma sənə and verirəm atanın və qardaşlarının canına özündən müğayət ol! Özünü qoru!

Beləcə bir-birlərinə təskinlik verdilər. Nə edək? allah bilən məsləhətdir təki sağlıq olsun. Yəqin ki, bu işlərin də bir axırı olar dünya belə qalmaz.

Amma, amma sən demə dünyanın təkəri tərsinə fırlanırmış. Rəmzi qəmgin-qəmgin dilləndi.Daha mənim sizə deyiləsi heç bir sözüm yoxdur. Bir də sözümü sizə yurdumuzda, Laçınımızda deyəcəyəm.

O, anasını, atasını qucaqlayıb, doyunca öpdü. Ağlamaqdan çox göz yaşları ürəyinə tökülən Rəmzi avtomatını çiyninə saldı. Hərbi çantasını götürüb qapıdan çıxdı. Arxasınca baxan anama ancaq belə dedi:

- Hamınız salamat qalın, ay ana. Əgər sizinlə bir də görüşməsən haqqınızı mənə halal edin.

Nitqi tutulmuş, qəhər boğmuş anam isə heç nə deyə bilmədi, ağladı, ağladı.

Rəmzi iri addımlarla maşina mindi, maşını sürətlə sürüb uzaqlaşdı. Anam isə arxasınca baxdı, baxdı.

Bu gediş, bu görüş Rəmzinin son görüşü, son gedişi oldu…

Artıq axşam düşür, gün qaralırdı. Maşını necə idarə edirdisə heç özü də bilmirdi. Bütün həyatı, keçirdiyi günlər yadına düşdü.

O torpaqda doğulmuşdum,
Xəmirilə yoğrulmuşdum,
Od parçası, od olmuşdum,
O yerlərdə izim qaldı.

Ha çalışdım, ha vuruşdum,
Nə kam aldım, nə qovuşdum,
Külək əsdi, özüm çaşdım,
Ürəklərdə sözüm qaldı.

Vətən getdi, yurdlar getdi,
Cavan ömrüm heçlə bitdi,
Cığır itdi, yollar itdi,

Vətənimdə gözüm qaldı,
Vətənimdə gözüm qaldı.

Amma bilmirdi ki, ....

Bu necə nalədir belə yanıqlı,
Bu necə yaradı qəmə sarıqlı,
Nəmli gözlərə bax, hicran soraqlı,
Nə oldu qəhrəman, məğrur oğlana
Hicranın əlindən qan ağla, ana!

Amma bilmirdi ki, anasının yanıqlı-yanıqlı ağladığı bu bayatı elə Rəmzinin nakam talehinə deyilən bir bayatıdır...

Mən aşiq olmayaydı,
Saralıb, solmayaydı,
Bir ayrılıq, bir ölüm
Heç biri olmayaydı.

Kaş ki, bu dünyada olmayaydı "Bir ayrılıq bir ölüm"

## Epiloq

Hər dəfə əlimə qələm alıb Rəmzi haqqında nə isə yazmaq istəyəndə qəhər məni boğur, əlimdə qələm titrəyir, içimdən bir fəryad qopur. Bu fəryadlar acı göz yaşlarına çevrilir. Ürəyimdən keçənlər acı göz yaşları ilə birlikdə sözlər əvəzinə vərəqlərin üzərinə düşür. Uzun bir vaxtdır ki, yazacağım buy azı yazılmaq bilmir ki, bilmir…

Bəzən məni qınayanlar çox olur, «Bu nə çətin bir işdir ki, sən bunu yazıb qurtara bilmirsən» deyənlər də.

Ancaq bunu mənə deyənlər onu da unudurlar ki, həyatını, keçdiyi yolu yazdığım gənc oğlan mənim qardaşım – canım, ürəyimdir. Nə edim, özümlə heç cür bacara bilmirəm.

Hələ elə olmayıb ki, əlimə qələm, vərəq götürəndə göz yaşlarım dəftərin üzərinə tökülməsin.

Ayrı vaxtlar ürəyimdən keçənləri, xatirələri, yazacağım sözlər qəhər içində – göz yaşları içində əriyib gedir, hər şey yaddan çıxır.

Axı mən bacıyam – məgər özümlə bacara bilərəm? Qardaş haqqında – nakam, arzuları ürəyində dəfn olunmuş, ömrü yarımçıq qalmış, həyatının çiçək açan dövründə qara məzara dustaq olmuş qardaş haqqında yazmağı o qədər də asan bilməyin.

Sonradan fikirləşəndə ki, bu qardaş həm də mənim eloğlumdur – Laçınlımdır, vətənini, elini sevən qeyrətli bir oğlandır, onda sözlər sıralanır.

Bəlkə də Rəmzinin adına layiq qəhrəmanlıqlarını, ürəyindən keçənləri doğru-dürüst bilməmişəm. Yarımçıq qalmış arzuları özü ilə aparan, nakam həyatını ona layiq sözlərlə ifadə edib qələmə ala bilməmişəm.

Sən çox az ömür yaşadın qardaş, 24 yaş nədir ki? Ancaq nakam taleli olsan da maraqlı, xatirəli, yaddaşlardan çıxmayan bir ömür – ata-ana, qardaş-bacı, qohum, yad sevgisi qazanan bir ömür yaşadın! Gizli qalmış arzularını, deyə bilmədiyin sözlərini, ən əsası isə yurdunun, elinin həsrətini, məhəbbətini, obana vurğunluğunu, özünlə qəbrə apardığın həyatını… təfsilatı ilə qələmə alıb yaza bilmədiyim üçün məni bağışla qardaş – bizi bağışla!

Yeganə təsəllim isə məzarını ziyarət etməyim və ruhun qarşısında baş əyməyimdir Rəmzi!!!



“Bir Ayrılıq...”adlı ilk kitabı ilə oxucuların qarşısına çıxan Əsgərova Afaq Əsgər qızı 1957-ci ildə Laçın şəhərində anadan olub. 1982-ci ildə Xankəndi Pedaqoji İnstitutunun filologiya fakultəsini bitirib. Uzun müddət müəllimlik fəaliyyəti ilə məşğul olub.

Hal-hazırda məktəb direktoru işləyir. Ailəlidir, dörd övladı və beş nəvəsi var.